RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 245 (9990) 19 noyabr 2025-ci il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





## Qələbə paradından yubiley paradınadək

Ötən beş ilin uğur və nailiyyətləri geniş və möhtəşəm olsa da, yubiley paradında yalnız ölkəmizin hərbi qüdrəti nümayiş olunurdu.

Yubiley paradında qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanla bərabər, qardaş Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif də fəxri qonaq qismində iştirak edirdilər.

Hərbi paradın açılışı mərasimində parlaq nitq söyləyən Azərbaycan Prezidenti İlham Əliyev ötən dövrdə görülən işlərə qısa bir nəzər saldı:

"Biz enerji və nəqliyyat layihələrini uğurla həyata keçirərək bir çox ölkələr, böyük coğrafiya üçün əvəzolunmaz ölkəyə çevrildik. Bütün bu amillərlə bərabər, ordu quruculuğu hər zaman prioritet məsələ olaraq qalırdı. Biz güclü ordu, güclü Silahlı Qüvvələr yaratmışıq. Ordumuzun döyüş qabiliyyətini artırmışıq, ordumuzu ən müasir silahlarla, texnika ilə təchiz etmişik. Bütün bu və digər amillər bizim Qələbəmizi, şanlı Zəfərimizi şərtləndirmişdir".

Çıxışının sonunda dövlət başçısı qürurla bəyan etdi:

"Biz bu beş ili qürur hissi ilə yaşamışıq. Əminəm ki, bundan sonra Azərbaycan xalqı qəhrəman, müzəffər xalq kimi, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaqdır. Biz - bu torpaqların sahibləri Qarabağa, Şərqi Zəngəzura qayıtmışıq və bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Azərbaycan bayrağı bu torpaqlarda əbədi dalğalanacaqdır".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın qazandığı Zəfərin dünyanın böyük bir kəsiminə göstərdiyi müsbət təsiri xüsusi vurğuladı:

"Vətən müharibəsi Asiyada və Avropadakı geosiyasi balansı da dəyişdi. Biz nə kin saxlayarıq, nə də keçmişdəki zülmlərin yenidən yaşanmasına izn verərik. Beləliklə, bu Zəfəri bir son olaraq deyil, Qafqazda davamlı sülhə gedən yolun məhək daşı olaraq görürük. Qafqazda sülhün bərqərar olmasının Asiyadan Avropaya qədər bütün bölgənin rifahına xidmət edəcəyi qənaətindəyik".

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif isə iki dövlətin dostluğunun və qardaşlığının əbədi olacağını bildirdi:

"Torpaqların azadlığı uğrunda bütün mübarizə dövründə Pakistan qardaş Azərbaycanın yanında bir qaya kimi dayandı. Bundan sonra da belə olacaq".

Azərbaycanın iqtisadi və hərbi qüdrətinin nümayişinə çevrilən yubiley paradını yaxından və uzaqdan izləyən dostlarımız hədsiz sevindilər, düşmənlərimiz və bədxahlarımız isə dərslərini götürdülər!

5

## Azərbaycan-Latviya münasibətlərinin xoş ənənələri vardır

### Latviya Respublikasının Prezidenti zati-aliləri cənab Edqars Rinkeviçsə



Hörmətli cənab Prezident!

Latviya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan-Latviya münasibətlərinin xoş ənənələri vardır. Xalqlarımızın tarixi əlaqələri, dövlətlərarası münasibətlərimizin hazırkı yüksək səviyyəsi müxtəlif sahələrdə səmərəli əməkdaşlığımızın genişlənməsi üçün yaxşı imkanlar yaradır.

Əminəm ki, xalqlarımızın mənafelərinə uyğun olaraq ölkələrimiz arasında ənənəvi dostluq münasibətlərini möhkəmləndirmək, əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Latviya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 noyabr 2025-ci il*

## İlham Əliyev Oman Sultanını təbrik edib

### Omanın Sultanı əlahəzrət Heytəm bin Tariq Al Səidə



Əlahəzrət!

Oman Sultanlığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Oman xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 noyabr 2025-ci il*

## Etibarlı maliyyə təminatı

### Gələn ilin dövlət büdcəsi inkişafın davamlı olmasına əlverişli zəmin yaradacaq

Azərbaycanın dövlət büdcəsi hər il ənənəvi olaraq investisiyatutumlu və sosialyönümlü tərtib olunur. Gələn ildə dövlət büdcəsinin 34 faizi investisiyayönümlü xərclərə yönəldiləcək. Bu da ilk növbədə iqtisadi inkişafın dayanıqlı olmasına xidmət edəcək.

Bununla yanaşı, digər prioritet olan sosialyönümlülük, əsasən də əhalinin sosial rifahının gücləndirilməsi istiqamətində tədbirlərin həm dövlət büdcəsi, həm də icmal büdcə çərçivəsində nəzərdə tutulması xüsusi qeyd edilməlidir. Son illər əhalinin rifah halının yaxşılaşdırılması, o cümlədən həssas qrupdan olan vətəndaşlara dövlət dəstəyinin gücləndirilməsi istiqamətində çoxsaylı islahat tədbirləri reallaşdırılıb. Büdcə zərfi ilə tanışlıq göstərir ki, sosial məsələlər növbəti ildə də prioritet olacaq. Növbəti ilin büdcəsində sosialyönlü xərclər 2025-ci illə müqayisədə 236 milyon manat çox olmaqla, 17 milyard 146 milyon manat təşkil edəcək.



10

## Qarabağda həyat canlanır



### Böyük qayıdış azad edilmiş torpaqlarda müasir şəhərsalma, sosial rifah və milli birliyin yeni mərhələsini formalaşdırır

Qısa zaman kəsiyində ərsəyə gəlmiş layihələr Qarabağ və Şərqi Zəngəzurun dirçəliş dastanına çevrilib. Müasir məktəblər, xəstəxanalar, sənaye zonaları, elektrik stansiyaları, su anbarları, yeni yollar və yaşayış məhəllələri bu bölgənin tam şəkildə həyat ritminə qayıtdığını göstərir. Bu gün artıq 21 mindən çox keçmiş məcburi köçkün doğma torpaqlarında daimi məskunlaşıb. Ümumilikdə 6 şəhər, 2 qəsəbə və 22 kənd köç karvanlarını qarşılayıb və bu proses ardıcıl şəkildə davam edir. Böyük qayıdışın birinci mərhələsi başa çatana qədər Qarabağ və Şərqi Zəngəzurda 140 min nəfərin - 34 min 500 ailənin doğma yurdlarında daimi məskunlaşması təmin ediləcək.

9

## Azərbaycan və Mərkəzi Asiya vahid formata çevrilir

### Tarixi, mədəni, mənəvi əlaqələr siyasi mərkəz halına gəlir

Azərbaycan və Mərkəzi Asiya vahid bir formata çevrilir. Tarixi, mədəni, mənəvi əlaqələrimiz siyasi mərkəz halına gəlir. Mərkəzi Asiya artıq 5 ölkə deyil, Azərbaycan da Mərkəzi Asiyanın tərkib hissəsidir, əməkdaşlıq və məşvərətçi formatın tamhüquqlu üzvüdür.



Bundan sonra Azərbaycan Mərkəzi Asiya çərçivəsində keçirilən görüşlərdə (dövlət, hökumət başçıları, nazirliklər, dövlət və ictimai təşkilatlar və s.) iştirak edəcək. Artıq Azərbaycan və Mərkəzi Asiya ölkələri həm də vahid geosiyasi və geoiqtisadi məkana çevrilməkdədir. Bu proses həm region dövlətlərinin maraqlarını təmin edir, həm də daha geniş coğrafiyada - Avropa və Asiya arasında qarşılıqlı bağlılığı gücləndirir. Statistik göstəricilərə əsasən, Orta dəhliz üzərindən yükdaşımalar sürətlə artır və Zəngəzur dəhlizinin (TRIPP) açılması ilə bu rəqəmlər daha da yüksələcək. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, dəhlizin Azərbaycan hissəsində işlər artıq tamamlanmaq üzrədir.

Ümumiyyətlə, Azərbaycanın bugünkü reallıqlarına nəzər salsaq görərik ki, ölkəmiz, sözün əsl mənasında, müstəqil dövlət kimi dünya xəritəsində öz layiqli yerini tuta bilib. Bütün regional məsələlərdə fəal iştirak edən Azərbaycan sabitlik və inkişaf amilinə çevrilib.

7

## "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin İnsan Resursları və Əmirlikləşmə Nazirliyi arasında işçi qüvvəsinin mütəşəkkil qaydada müvəqqəti işə cəlb olunması sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il sentyabrın 16-da Şuşa şəhərində imzalanmış "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin İnsan Resursları və Əmirlikləşmə Nazirliyi arasında işçi qüvvəsinin mütəşəkkil qaydada müvəqqəti işə cəlb olunması sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Birləşmiş Ərəb Əmirlikləri Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 noyabr 2025-ci il*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 iyun tarixli 200 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 336** **Bakı şəhəri, 17 noyabr 2025-ci**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Axar-Baxar və İlisu milli parklarının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 14 iyul tarixli 664 nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 iyun tarixli 200 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 862 (Cild I); 2024, № 9, maddə 1091; 2025, № 9, maddə 872 ) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"na aşağıdakı məzmunda 1.1.9-1-ci və 1.1.9-2-ci yarımbəndlər əlavə edilsin:

"1.1.9-1. Azərbaycan Respublikasının Axar-Baxar Milli Parkı;
1.1.9-2. Azərbaycan Respublikasının İlisu Milli Parkı;".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Dövlət büdcəsindən maliyyələşən təşkilatlar tərəfindən beynəlxalq və ölkə səviyyəli tədbirlərin keçirilməsi, habelə xarici ölkələrin nümayəndə heyətlərinin və rəsmi şəxslərinin qəbulu, onlara xidmət göstərilməsi üçün dövlət büdcəsində vəsaitin nəzərdə tutulması və xərclənməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 4 noyabr tarixli 254 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 337** **Bakı şəhəri, 18 noyabr 2025-ci**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dövlət büdcəsindən maliyyələşən təşkilatlar tərəfindən beynəlxalq və ölkə səviyyəli tədbirlərin keçirilməsi, habelə xarici ölkələrin nümayəndə heyətlərinin və rəsmi şəxslərinin qəbulu, onlara xidmət göstərilməsi üçün dövlət büdcəsində vəsaitin nəzərdə tutulması və xərclənməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 4 noyabr tarixli 254 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 11, maddə 1035 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. 3.3-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.4-cü bənd əlavə edilsin:

"3.4. bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilən Qaydalarla müəyyən edilmiş xərc normaları dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, həmçinin dövlət adından yaradılan publik hüquqi şəxslər tərəfindən həyata keçirilən beynəlxalq və ölkə səviyyəli tədbirlərə də tətbiq olunur.".

2. Həmin Qərarla təsdiq edilmiş "Dövlət büdcəsindən maliyyələşən təşkilatlar tərəfindən beynəlxalq və ölkə səviyyəli tədbirlərin keçirilməsi, habelə xarici ölkələrin nümayəndə heyətlərinin və rəsmi şəxslərinin qəbulu, onlara xidmət göstərilməsi üçün dövlət büdcəsində vəsaitin nəzərdə tutulması və xərclənməsi Qaydaları"na əlavə - "Dövlət büdcəsindən maliyyələşən təşkilatlar tərəfindən beynəlxalq və ölkə səviyyəli tədbirlərin keçirilməsi, habelə xarici ölkələrin nümayəndə heyətlərinin və rəsmi şəxslərinin qəbulu, onlara xidmət göstərilməsi üçün büdcə vəsaitlərinin xərc normaları" üzrə:

2.1. cədvəl aşağıdakı redaksiyada verilsin:

| Sıra №-si | Xərclər | Xərc normalarının yuxarı həddi |
|---|---|---|
| **1. Yemək xərcləri (1 nəfər üçün)** | | |
| 1.1. | nahar yeməyi | 90 manat |
| 1.2. | şam yeməyi | 120 manat |
| 1.3. | ziyafət (tədbir ərzində 2 dəfədən artıq olmamaq şərtilə) | 180 manat |
| 1.4. | gün ərzində tədbirin təşkili ilə bağlı cəlb olunan yardımçı heyət (sürücülər, könüllülər, təhlükəsizlik işçiləri və s.) üçün yemək xərci | 30 manat |
| 1.5. | gün ərzində danışıqlar, mədəni tədbirlər zamanı çay, qəhvə fasiləsi və qəlyanaltı | 30 manat |
| **2. Dəftərxana xərcləri (1 nəfər üçün)** | | |
| 2.1. | nümayəndə heyətinin rəhbəri, nazirlər və onlara bərabər tutulan şəxslər, sabiq dövlət və hökumət başçıları, deputatlar, fəxri qonaqlar üçün | 80 manat |
| 2.2. | nümayəndə heyətinin üzvləri üçün | 40 manat |
| **3. Azərbaycan Respublikasının tarixini və mədəniyyətini təcəssüm etdirən xatirə hədiyyələrinin alınması xərcləri (1 nəfər üçün)** | | |
| 3.1. | nümayəndə heyətinin rəhbəri, nazirlər və onlara bərabər tutulan şəxslər, sabiq dövlət və hökumət başçıları, deputatlar, fəxri qonaqlar üçün | 200 manat |
| 3.2. | nümayəndə heyətinin üzvləri üçün | 70 manat |

2.2. "Qeydlər" üzrə:

2.2.1. 1-ci hissədə mötərizədə "1-ci və 4-cü hissələri" sözləri "3-cü hissə" sözləri ilə əvəz edilsin;

2.2.2. 2-ci hissənin birinci cümləsində "sayından" sözü "sayının 1,5 mislindən" sözləri ilə əvəz edilsin;

2.2.3. 6.1-ci bənddə "xərc normalarının 1.1-ci bəndində göstərilən şəxslər" sözləri "nümayəndə heyətinin rəhbəri, nazirlər və onlara bərabər tutulan şəxslər, sabiq dövlət və hökumət başçıları, deputatlar, fəxri qonaqlar" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Əli Əsədov Beynəlxalq Su İdman Növləri Federasiyasının prezidenti ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 18-də Beynəlxalq Su İdman Növləri Federasiyasının prezidenti Hüseyn Əl-Müsəlləmlə görüşüb.**

Nazirlər Kabinetindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycanda bədən tərbiyəsinin və idmanın inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğu vurğulanıb, idmançıların dövlət tərəfindən yüksək diqqət və qayğı ilə əhatə olunduğu bildirilib.

Qeyd edilib ki, ölkəmizdə ən müasir standartlara cavab verən idman infrastrukturu qurulub, o cümlədən ayrı-ayrı regionlarda çoxsaylı olimpiya idman kompleksləri tikilib. Azərbaycan bir çox mötəbər beynəlxalq idman tədbirinə, dünya çempionatlarına uğurla evsahibliyi edib.

Söhbət zamanı ölkəmizdə su idman növlərinin inkişafı və kütləviləşməsi məqsədilə həyata keçirilən tədbirlər barədə söhbət açılıb, Beynəlxalq Su İdman Növləri Federasiyası ilə əməkdaşlıq məsələləri müzakirə olunub.

# Maliyyə Nazirliyi ilə Koreyanın Fiskal İnformasiya Xidməti arasında memorandum imzalanıb

Noyabrın 18-də Azərbaycan Respublikasının maliyyə naziri Sahil Babayev Koreya Fiskal İnformasiya Xidmətinin (KFIS) prezidenti Seok Ho Yoonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Görüşdə Azərbaycan ilə Koreya arasında maliyyə idarəetməsi sahəsində əməkdaşlığın genişləndirilməsi imkanları, o cümlədən ölkəmizdə yeni İnteqrasiya olunmuş Maliyyə İdarəetmə İnformasiya Sisteminin (IFMIS) inkişafı, Koreyanın dövlət maliyyə sistemi olan "dBrain+" və hökumət subsidiyalarının idarəetmə sistemi olan "e-Naradoum" üzrə təcrübələrin öyrənilməsi barədə müzakirələr aparılıb. Bu kontekstdə Koreya nümayəndə heyətinin iştirakı ilə Maliyyə Nazirliyində IFMIS üzrə keçirilmiş birgə seminarın əhəmiyyəti qeyd olunub.

Sahil Babayev Maliyyə Nazirliyində son dövrlərdə aparılan genişmiqyaslı rəqəmsallaşma prosesləri haqqında məlumat verərək Prezident İlham Əliyevin "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" fərmanı ilə maliyyə idarəetməsi sahəsində rəqəmsal islahatların daha da sürətləndiyini və maliyyə idarəetmə arxitekturasının müasir tələblərə uyğun şəkildə yenidən qurulduğunu qeyd edib.

Nazir Koreya təcrübəsinin bu proseslərdə praktiki əhəmiyyət daşıdığını və innovativ, dayanıqlı maliyyə idarəetmə modellərinin formalaşdırılmasına ciddi töhfə verəcəyinə əmin olduğunu bildirib.

Görüşdə iki ölkə arasında maliyyə idarəetməsi sahəsində təcrübə mübadiləsinin genişləndirilməsi, xüsusilə "dBrain+" təcrübəsi əsasında proses və iş axınlarının təkmilləşdirilməsi, xarici vendor asılılığının azaldılması istiqamətində bilik və texnoloji transferin gücləndirilməsi, data əsaslı qərarvermə mexanizmlərinin tətbiqi, audit və nəzarət infrastrukturunun, eləcə də kibertəhlükəsizlik çərçivəsinin inkişaf etdirilməsi kimi gələcək əməkdaşlıq istiqamətləri müzakirə olunub.

KFIS prezidenti Seok Ho Yoon Koreyanın IFMIS sahəsində təcrübə və qabaqcıl texnoloji həllərin paylaşılması, eləcə də Azərbaycanın rəqəmsal maliyyə informasiya sisteminin qurulmasına ölkəsinin müvafiq qurumlarının dəstək göstərməyə hazır olduğunu bildirib.

Görüşün sonunda Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Rəqəmsal Maliyyə Mərkəzi ilə Koreya Respublikasının Fiskal İnformasiya Xidməti arasında Rəqəmsal Dövlət Maliyyə İnformasiya Sisteminin hazırlanması, tətbiqi və istismarı sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

Memorandum birgə tədqiqat və texniki dəstəyin göstərilməsi, kibertəhlükəsizlik, dayanıqlılıq və audit standartlarına uyğunluq sahələrində təcrübənin öyrənilməsini, həmçinin təlim və təcrübə proqramları vasitəsilə kadr potensialının gücləndirilməsini nəzərdə tutur.

***"Azərbaycan"***

# Azərbaycan və Ermənistan parlament nümayəndə heyətləri arasında görüş olub

Noyabrın 18-də ATƏT Parlament Assambleyasının İstanbulda keçirilən 23-cü payız sessiyası çərçivəsində Azərbaycan və Ermənistan parlament nümayəndə heyətləri arasında ikitərəfli görüş keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüş Azərbaycan və Ermənistan parlament sədrləri arasında 2025-ci il oktyabrın 21-də Cenevrədə aparılmış müzakirələr çərçivəsində əldə olunmuş razılaşma əsasında baş tutub. Görüşdə Vaşinqton sammitinin müsbət rolu qeyd edilib, əldə edilmiş razılaşmalar və Azərbaycanla Ermənistan arasında sülhün möhkəmləndirilməsi istiqamətində atılan növbəti addımlar, habelə hər iki ölkənin parlamentlərinin bu prosesə dəstəyinin əhəmiyyəti barədə fikir mübadiləsi aparılıb.

Söhbət zamanı iki ölkə arasında həyata keçirilən etimadın artırılması tədbirlərində parlamentlərin roluna toxunulub, həmçinin parlament üzvləri arasında beynəlxalq təşkilatlar çərçivəsində konstruktiv dialoqun vacibliyi vurğulanıb.

***"Azərbaycan"***

# Zəngilan şəhərində Əlaqələndirmə Qərargahının 5 illik fəaliyyətinə həsr olunmuş iclas keçirilib





































**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Zəngilan şəhərində qərargahın 5 illik fəaliyyətinə həsr olunmuş iclas keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən Samir Nuriyev dövlət başçısının birbaşa rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə "Böyük qayıdış" proqramının gerçəkləşdirildiyini bildirib. Onun sözlərinə görə, Qarabağın və Şərqi Zəngəzurun bərpası, yenidən qurulması istiqamətində həyata keçirilən genişmiqyaslı işlər postmünaqişə dövründə tətbiq edilən ən sistemli və sürətli yenidənqurma modellərindən biri kimi beynəlxalq təcrübə üçün mühüm nümunədir.

Qərargah rəhbəri deyib ki, həyata keçirilən genişmiqyaslı layihələr regionun bütün inkişaf mənzərəsini köklü şəkildə dəyişib. Beş il ərzində dövlət başçısı işğaldan azad olunmuş ərazilər üzrə 569 tədbirdə iştirak edib, müxtəlif təyinatlı 177 layihənin təməlini qoyub, 167 obyektin və infrastruktur layihəsinin açılışını edib.







Böyük qayıdışın inteqrasiyalı yanaşma ilə təmin olunmasının real nəticələr verdiyi və artıq "İşğaldan azad edilmiş ərazilərin Ümumi Planı"nın, 8 şəhərin Baş planının, 3 şəhərin isə müfəssəl planının təsdiqləndiyi, Xankəndi, Xocalı, Ağdərə və Xocavənd şəhərlərinin baş planlarının işlənilmə mərhələsində olduğu diqqətə çatdırılıb. Qeyd edilib ki, Qarabağda və Şərqi Zəngəzurda aidiyyəti dövlət qurumları və yerli şirkətlər tərəfindən aparılan minatəmizləmə fəaliyyəti nəticəsində 240 min hektardan çox ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib, 3 beynəlxalq hava limanı istifadəyə verilib, tikintisi nəzərdə tutulmuş, ümumi uzunluğu 3501,6 kilometr olan avtomobil yolları üzrə 60 layihədən 16-sı tam, 1-i isə qismən icra edilib. Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin açılışı baş tutub. Avtomobil yolları üzərində 28 tuneldə qazma işləri, 392 körpü və 9 viadukun tikintisi artıq başa çatıb. Dəmir yollarının tikintisi ilə bağlı 49 körpünün tikintisi planlaşdırılıb, onlardan 42 körpünün inşası başa çatıb, 3 körpü istismara verilib. Qarabağda və Şərqi Zəngəzurda 38 su-elektrik stansiyası, 4 su anbarı, 14 elektrik yarımstansiyası istismara buraxılıb, 6 magistral qaz xətti, 1000 kilometrdən artıq yüksəkgərginlikli elektrik verilişi xətləri çəkilib, 8 şəhərə, 20 kəndə və 1 qəsəbəyə qazın verilməsi təmin olunub. Bölgədə 1 xəstəxana, 19 ümumi, 7 məktəbəqədər təhsil müəssisəsi istifadəyə verilib. Bundan əlavə, Xankəndi şəhərində Qarabağ Universiteti fəaliyyətə başlayıb.

İşğaldan azad olunmuş ərazilərin iqtisadi dirçəlişində əsas rol oynayan Ağdam və Cəbrayıl rayonlarında "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları salınıb. Hər iki parkda 50 müəssisə rezident, 7 müəssisə isə qeyri-rezident kimi qeydiyyata alınıb. Ümumi dəyəri 454 milyon manat olan layihələrin icrası çərçivəsində 185 milyon manat həcmində investisiya yatırılıb və 1057 yeni iş yeri yaradılıb. Parklarda fəaliyyətə başlamış rezidentlər tərəfindən 949,4 milyon manat məbləğində məhsul istehsal olunub. Ağdam Sənaye Parkı rezidentləri tərəfindən istehsal olunmuş məhsulların 39,5 milyon manatlıq hissəsi ixrac edilib.

Bütün bunlar bərpa və inkişaf proseslərinin praktiki nəticələrini göstərməklə yanaşı, dövlət başçısının ərazilərin bərpasına yönələn siyasətinin ardıcıllığını və bu istiqamətə olan yüksək diqqətini əks etdirir. Görülən işlərin nəticəsində hazırda dövlət və özəl sektorlarda işləyənlər, həmçinin təhsil alanlar da daxil olmaqla, işğaldan azad edilmiş ərazilərdə 62 mindən çox insan yaşayır və fəaliyyət göstərir.

Qərargah rəhbəri bölgənin münbit torpaq və əlverişli iqlim şəraiti ilə seçildiyini, bunun da ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafı üçün geniş imkanlar yaratdığını və bu istiqamətdə müvafiq işlərin aparıldığını bildirib.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində işğaldan azad edilmiş ərazilərdə yaşayış məntəqələri üzrə həyata keçirilən işlər barədə məlumatlar təqdim edilib. Bundan əlavə, ərazilərdə tikinti layihələrinin hazırlanmasına, tikinti-quraşdırma işlərinin aparılmasına dövlət nəzarətinin həyata keçirilməsi, fövqəladə hallara qarşı dayanıqlılığın, əhalinin dayanıqlı məskunlaşmasının təmin edilməsi, kənd təsərrüfatı təyinatlı torpaqlardan səmərəli istifadənin və rəqabətqabiliyyətli aqrar istehsalın təşkili, mədəni, tarixi və dini abidələrin bərpası və qorunması istiqamətlərində görülən işlər barədə məruzələr dinlənilib.

İclasın sonunda Azərbaycan Respublikasının Prezidenti tərəfindən qarşıya qoyulan vəzifələrin icrasından irəli gələrək zəruri tədbirlərin görülməsi iclas iştirakçılarının diqqətinə çatdırılıb və müvafiq tapşırıqlar verilib. Bildirilib ki, Böyük qayıdışın uğurla davam etdirilməsi üçün koordinasiya, innovasiya və şəffaflıq prinsipləri daim ön planda saxlanılmalıdır.

Səfər çərçivəsində Zəngilan şəhəri ərazisində bir sıra obyektlərə, o cümlədən Zəngilan şəhər məscidinə, Zəngilan şəhər yaşayış kompleksinə və məktəb binasına baxış keçirilib. Bundan əlavə, Əlaqələndirmə Qərargahının üzvləri Zəngilan Hotel Kompleksində görülən işlərlə tanış olublar.

Daha sonra "Dost Agro Park"a aid əkin sahələrindəki dairəvi (pivot) suvarma sistemlərinə, həmin parkın heyvandarlıq kompleksinə, Ağalı kəndinin sakinləri üçün parselləşmə aparılmış kənd təsərrüfatı təyinatlı torpaq sahələrinə və "Şirin Aqro" QSC bağçılıq ərazisinə baxış keçirilib.

Qərargahın üzvləri həmçinin Zəngəzur dəhlizində avtomobil yolunun və dəmir yolu xəttinin, eyni zamanda Araz çayı üzərində tikilən Ağbənd-Kəlalə körpüsünün inşası prosesi ilə tanış olublar. Onlara Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun İran İslam Respublikası ilə bağlantısı, Araz çayı üzərində inşa edilən körpüdə və Zəngəzur dəhlizinin tərkib hissəsi olan Horadiz-Ağbənd avtomobil və dəmir yollarının inşası, eləcə də müvafiq buraxılış məntəqəsinin tikintisi ilə bağlı planlaşdırılan işlər, o cümlədən gömrük nəzarətinin təşkilinə və infrastrukturun yaradılmasına dair mövcud vəziyyət barədə məlumatlar təqdim olunub.

# "Gülçöhrə və Əsgər" tamaşasının premyerası olub

**Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva iştirak ediblər**





Noyabrın 18-də Azərbaycan Dövlət Akademik Musiqili Teatrında Xalq yazıçısı Kamal Abdullanın eyniadlı pyesinin motivləri əsasında səhnələşdirilən "Gülçöhrə və Əsgər" tamaşasının premyerası olub. Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva iştirak edib, tamaşanı izləyiblər.











AZƏRTAC xəbər verir ki, "Gülçöhrə və Əsgər" ikihissəli musiqili dramı dahi Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan" əsərinin davamıdır.

Yeni səhnə əsərinin bəstəkarı Əməkdar incəsənət xadimi Cavanşir Quliyev jurnalistlərə açıqlamasında tamaşaya fərqli yanaşma olunduğunu diqqətə çatdırıb. "Bu əsər "Arşın mal alan"dan fərqli olaraq xoşbəxt sonluqla bitmir. Süjet gözlənilməzdir və tamaşaçını daim diqqətdə saxlayır. Bu səbəbdən həm maraqlı, həm də dəyərli təcrübə oldu", - deyə bəstəkar əlavə edib.

Həm "Arşın mal alan", həm də "Gülçöhrə və Əsgər" tamaşalarında Əsgər obrazının ifaçısı, Prezident mükafatçısı Səmədzadə Xasiyev vurğulayıb ki, rolların ikisi də xarakterikdir. Yaradıcı heyətin tamaşa üzərində uzun müddət çalışdığını bildirən aktyor deyib: "Əsgərin musiqili komediyadakı şən və romantik tərəfi və yeni əsərdəki dramatik taleyi aktyor kimi mənə geniş ifadə imkanları yaradır. Bu rol üzərində işləmək həm məsuliyyətli, həm də yaradıcı baxımdan dəyərlidir. Əsgər və Gülçöhrə tarixin qaranlıq və sərt dönəmlərində yaşadıqları sarsıntılar fonunda bütöv bir dövrün mənzərəsini yaradırlar. Əsgərin Sibirdə keçirdiyi məşəqqətli illər, Gülçöhrənin isə ümidsizlik içində onu gözləməsi təkcə nakam sevgi hekayəsi deyil, həm də bir xalqın yaddaşını, mübarizliyini və sarsılmaz ruhunu əks etdirən bədii salnamədir".

İkihissəli musiqili dramda Telli obrazını canlandıran Elnarə Nağdəliyeva qeyd edib ki, o, mərhəmətli və şən qadındır. "Obrazın daxili gücünü və yumşaq xarakterini tamaşaçıya çatdırmağa çalışdım. Telli obrazı ağasına və xanımına sadiqliyi ilə seçilir. Bütün gərginliyə, təhlükələrə və çətinliklərə baxmayaraq, o, xanımını və bəyini tək qoymur, onlarla birlikdə İrana, İstanbula, sonra isə Fransaya qədər uzanan çətin yola çıxır", - deyə aktrisa əlavə edib.

"Gülçöhrə və Əsgər"in tamaşaçısı, Əməkdar incəsənət xadimi Məryəm Əlizadə səhnə əsərindən təsirləndiyini deyib: "Tamaşa Azərbaycan Xalq Cümhuriyyəti dövründə baş verən siyasi və ictimai hadisələri, xüsusilə bolşeviklərin ölkəmizə vurduğu maddi və mənəvi zərbələrin acı nəticələrini incə ustalıqla əks etdirib. Gülçöhrə və Əsgərin mürəkkəb taleyi tamaşada yüksək sənətkarlıqla təqdim olunur və izləyicidə güclü emosional təəssürat yaradır". Tamaşanın quruluşçu rejissoru Əsgər Əsgərov, dirijoru Fəxrəddin Atayev, baletmeysteri Nigar Şahmuradova, xormeysteri Vaqif Məstanovdur.

Səhnə əsərində Əməkdar artistlər Əzizağa Əzizov, İlqar Salamov, Prezident mükafatçıları Səmədzadə Xasiyev, Mehriban Zaliyeva, Atilla Məmmədov, aktyorlar Faiq Mirzəyev, Gültac Əlili, Gülnarə Abdullayeva, Elnarə Nağdəliyeva, İbrahim Əlizadə, Elçin İmanov, Elxan İsmayılov, Əli Kərimov, Orxan Hüseynov, Kamil Cəfərov, Nicat Həbibov, həmçinin xor və balet artistləri iştirak ediblər.

# "Azərbaycan dilini öyrənirik" kitabının təqdimat mərasimi keçirilib











**Noyabrın 18-də "LIBRAFF" kitab mağazaları şəbəkəsinin "Park Akademiya" filialında Səbinə Əliyeva, Hüzurə Ağayeva və Gülarə Əmirovanın həmmüəllifi olduqları "Azərbaycan dilini öyrənirik" kitabının təqdimat mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və Alena Əliyeva iştirak ediblər.







Təqdimat mərasimində çıxış edən kitabın həmmüəllifi Səbinə Əliyeva kitabın 4-6 yaşlı uşaqlar üçün nəzərdə tutulduğunu, ölkəmizdə fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrində yetişən uşaqlara, o cümlədən Azərbaycandan kənarda yaşayan balaca həmyerlilərimizə ana dilini öyrətmək, dilimizə qarşı sevgi oyatmaq, öz dilimizdə ünsiyyət qurmaq bacarıqlarını uşaq yaşlarından formalaşdırmaq məqsədi daşıdığını deyib: "Bu kitabı hazırlamaqda əsas hədəflərdən biri Azərbaycan dilini öyrətməklə yanaşı, ölkəmizin milli dəyərlərinə, mədəniyyətinə bağlılıq yaratmaqdır. Kitab ümumilikdə 8 bölmədən ibarətdir və müxtəlif mövzulara həsr olunub. Kitabın ən maraqlı xüsusiyyətlərindən biri şəkillər əsasında hazırlanmasıdır. Həmin yaş qrupunda olan uşaqlarda oxu-yazı bacarığı hələ formalaşmır. Ona görə də balacaların qavrama xüsusiyyətləri nəzərə alınaraq mövzular şəkillərlə izah olunub. Bir yandan da şəkillərlə öyrənmə prosesi daha əyləncəli və yaddaqalan edir.



Ən maraqlı cəhətlərdən biri "dinləyək və öyrənək" rubrikasıdır. Burada Azərbaycan şairlərinin şeirləri audioformat şəklində, yəni QR kod vasitəsilə səsli versiyada oxutdurulur. Bununla yanaşı, kitaba uşaqların erkən yaşda ilkin ünsiyyət bacarıqlarını inkişaf etdirmək üçün ən zəruri olan ifadələr, sözlər, cümlələr daxil edilib ki, burada da məqsəd öyrənmə prosesini daha sistemli şəkildə həyata keçirməkdir. Məlum olduğu kimi, həmin yaş qrupundan olan uşaqlara yazılı söz və ifadələr, həmçinin şeirlər müəllimlər və valideynlər tərəfindən səsləndirilir və öyrədilir. Kitabda bir növ müəllim və valideynlərə istiqamət verilir".

Kitabın redaktoru professor Sevinc Əliyeva üçillik zəhmətin bəhrəsi olan həmin kitabın dilimizə sevgi, dəyərlərimizə bağlılığın ifadəsi olduğunu bildirib. O, nəşrin xaricdə yaşayan və böyüyən azərbaycanlı uşaqların da sevimli kitabına çevriləcəyinə inamını ifadə edib.

Azərbaycan Dillər Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru Jalə Qəribova, yazıçı, şair, pedaqoq, professor Zahid Xəlil, Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Göyərçin" jurnalının baş redaktoru, professor Rafiq Yusifoğlu, Abdulla Şaiqin nəvəsi və ev-muzeyinin direktoru Ülkər Talıbzadə çıxış edərək Prezident İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqda çıxışı zamanı nitqindən fikirləri xatırladıblar. Bildirilib ki, dövlət başçısının vurğuladığı kimi, Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər. Çıxış edənlər Azərbaycan dilinə dövlət səviyyəsində qayğı göstərildiyini qeyd edib, bu istiqamətdə atılan addımlardan bəhs ediblər.

Natiqlər "Azərbaycan dilini öyrənirik" kitabını tədris vasitəsi kimi yüksək qiymətləndirib, uşaqların doğma dilimizdə düşünüb-danışmağı sadə və anlaşılan şəkildə öyrənməsi üçün faydalı olacağına və bu cür layihələrin davamlı xarakter alacağına inamlarını ifadə ediblər.

Tədbir zamanı, həmçinin bədii hissə nümayiş etdirilib, kitaba daxil edilən şeirlərdən bir neçəsi QR kod vasitəsilə səsləndirilib.



# Qələbə paradından yubiley paradınadək

**10 dekabr 2020-ci ildə Azadlıq meydanında Qələbə paradı keçirildi!**

**Bu paradı labüd edən Azərbaycan Ordusunun işğalçı Ermənistan ordusu üzərindəki möhtəşəm qələbəsi idi!**

*Cəmi 44 gün çəkən Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə Azərbaycan Ordusu düşmən ordusunu məhv edərək diz çökdürdü, onu kapitulyasiya aktını imzalamağa məcbur etdi!*

*Bununla da 27 illik işğala son qoyuldu!*

Bu müharibənin daha bir unikal cəhəti də vardır!

**Müzəffər Ali Baş Komandanımız düşməni təkcə hərb meydanında deyil, informasiya cəbhəsində və diplomatiya sahəsində də acınacaqlı məğlubiyyətə uğratdı.**

Həm də bütün dünyanın gözləri qarşısında!

*Biz hər gün televiziya ekranlarında təkcə düşmənin canlı qüvvələrinin, zirehli texnikaları və atəş nöqtələrinin, səngər və kazarmalarının məhv edildiyi məqamları izləmirdik.*

**Həm də baş Sərkərdəmiz İlham Əliyevin dünya KİV-inə, o cümlədən informasiya agentlikləri və telekanallarına verdiyi müsahibələri və bu müsahibələrdə feyk xəbərləri, qərəzli yanaşmaları və bizi nədəsə suçlamaq cəhdlərini necə qətiyyətlə rədd etdiyini, ermənipərəst müxbirlərin məkrli suallarını müdrikliklə cavablandıraraq jurnalistlərin dünya erməniliyinə yarınmaq cəhdlərini puça çıxardığını, yaranmış imkandan məharətlə istifadə sayəsində onları öz tribunalarında ifşa etdiyini maraq və ləzzətlə seyr edirdik!**

*Ermənilərə dost dövlətlərin başçılarının dalbadal Azərbaycan Prezidentinə zənglər edərək hərbi əməliyyatların dayandırılması üçün xahiş-minnətlərinin, diplomatik gedişlərinin, hətta bəzən təhdidə əl atmalarının da səmərəsiz qaldığından xəbər tuturduq.*

**Yalnız Müzəffər Ali Baş Komandan İlham Əliyevin şərti yerinə yetirildikdən - düşmən qoşunlarının ərazilərimizi tərk etmə qrafiki bizə təqdim olunduqdan sonra həmin xahişlərə baxıldı, hərbi əməliyyatlar dayandırıldı!**

Ancaq üç cəbhədə qazanılan möhtəşəm qələbələr də hələ az idi!

Zəfər paradından sonra da bir sıra yeni uğur və nailiyyətlərə imza atıldı.

Bütün bunlar barədə bir qədər sonra...

❖ ❖ ❖

Azərbaycan tarixinin ən möhtəşəm Zəfər paradı isə yaddaşlara əbədi həkk olunmaqla nəsillərdən-nəsillərə ötürülərək xalqımızın qəlbində daim yaşayacaqdır!

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin Zəfər paradındakı parlaq və təntənəli çıxışı indi də qulaqlarımızda səslənməkdədir:**

*"Azərbaycanın müzəffər ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın "dəmir yumruğ"u onların belini qıracaq".*

**Azərbaycanın baş Sərkərdəsi bu paradın möhtəşəmliyini və unikallığını da xüsusi qeyd edirdi:**

*"Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Paradların birində mən demişdim ki, parada 2016-cı ildə Lələtəpə yüksəkliyində qaldırılmış bayraq gətiriləcək. Demişdim ki, gün gələcək və bu gün işğaldan azad edilən torpaqlarda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və bu gün gəldi. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. Biz bundan sonra ancaq və ancaq irəli gedəcəyik".*

**Bu paradın sevinc və fərəhini artıran ən mühüm məqamlardan biri orada qardaş Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın iştirakı idi.**

**Qardaş ölkənin rəhbəri 44 günlük müharibədə Azərbaycan-Türkiyə qardaşlığının bir daha uğurla sınaqdan çıxdığını və daha da möhkəmləndiyini söylədi:**

*"Türkiyə Azərbaycanın apardığı mübarizəyə ilk günlərdən bütün qurum və təşkilatları ilə dəstək vermiş, bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanında olmuşdur. Türkiyə olaraq Azərbaycan ilə münasibətlərimizdə özümüzə hər zaman böyük lider Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün dəqiq ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik. Bu anlayışla Qarabağı otuz il boyunca sinəmizdə yara etdik. Bu gün də bu yaranın sağalmasının sevincini paylaşmaq, bu şanlı zəfəri birlikdə qeyd etmək üçün aranızdayıq".*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev qələbənin bir çox sahələrdə görülən işlərin real bəhrəsi olduğunu da xüsusi vurğuladı:**

*"Mən 2003-cü ildə Prezident vəzifəsinə seçiləndə Konstitusiyamıza və müqəddəs Qurani-Kərimə əl basaraq and içmişdim ki, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Bu gün böyük qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan öz istədiyinə nail oldu, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi".*

Bəli, 30 ildə Azərbaycan xalqı bir an da olsun torpaqlarının işğalda qaldığını və onun azad olunması zəruriliyini unutmadı!

*30 ildə dövlətin daxili və xarici siyasəti ilk növbədə, bu vəzifələrin yerinə yetirilməsinə yönləndirildi:*

- Tarixinin ən qüdrətli Azərbaycanı yaradıldı.
- Hücum diplomatiyasına keçid edilərək beynəlxalq qurum və təşkilatlarda iş gücləndirildi.
- Müstəqil daxili və xarici siyasət yeridilməklə Azərbaycan xalqının rifahı xeyli yüksəldildi, onunla dostluq edən dövlətlərin sayı artdı.
- Azərbaycan Prezidenti İlham Əliyevin beynəlxalq təşkilatlara - BMT-nin Təhlükəsizlik Şurasına, Qoşulmama Hərəkatına, İslam Əməkdaşlıq Təşkilatına uğurlu rəhbərliyi, qaldırdığı təşəbbüslər və gördüyü işlər sayəsində ölkəmizin beynəlxalq nüfuzu əsaslı şəkildə yüksəldi, siyasi çəkisi artdı.
- Yeni gənclər nəsli yetişdirildi, onların iştirak etdiyi müasir ordu yaradıldı.
- Qüdrətli ordu quruldu, o, ən müasir texnologiyalara əsaslanan silah-sursatla, yeni texnika ilə təmin olundu.
- Azərbaycan xalqının indiyədək görünməmiş möhkəm birliyi yarandı.

Həyata keçirilən tədbirlər, atılan addımlar xalqımızın 30 illik işğala son qoyması, ordumuzun cəmi 44 gün ərzində mənfur düşmən üzərində qələbə çalaraq onun ordusunu məhv edib kapitulyasiya aktını imzalamağa vadar etməsi ilə nəticələndi.

❖ ❖ ❖

44 günlük Zəfər müharibəsindən sonra həmin zəfərə bərabər bir neçə möhtəşəm, tarixi qələbəyə də imza atıldı:

- 23 aprel 2023-cü ildə son dərəcə unikal hərbi əməliyyat keçirilərək şər qapısına çevrilən, Azərbaycanın düşmənlərinin və bədxahlarının maneəsiz şəkildə ölkəmizə daxil olduğu, ərazilərimizdəki qeyri-qanuni hərbi birləşmələrinin sərbəst olaraq qidalandırıldığı Laçın qapısı birdəfəlik bağlandı.
- Həmin ilin sentyabrının 19-20-də Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılan antiterror tədbirləri keçirildi.

Cəmi altı saat ərzində terrorçu yuvaları, onların silah-sursat anbarları dəqiq zərbələrlə məhv edildi, başlarını soxmağa yer tapmayan terrorçular və erməni hərbçilərinin tör-töküntüləri ağ bayraq qaldıraraq təslim oldular!

Cəmi 23 saat davam edən bu əməliyyat zamanı bir nəfər belə mülki əhaliyə və mülki obyektə ziyan dəymədi.

Sonlarının çatdığını başa düşən və Azərbaycanın qanunları əsasında ərazimizdə yaşamaq istəməyən separatçıların isə dinc şəkildə çıxıb getmələrinə imkan yaradıldı.

- 2024-cü ilin 12 iyununda isə daha bir mühüm hadisə baş verdi.

Ermənipərəst mövqe nümayiş etdirən və separatçılara qulluq göstərən Rusiya Sülhməramlı Kontingenti də musiqi sədaları altında Qarabağı tərk etdi.

❖ ❖ ❖

**İkiəsrlik Qarabağ münaqişəsinə birdəfəlik son qoyan, torpaqlarını uzunmüddətli işğaldan azad edərək Zəfər paradı keçirən Azərbaycan təkcə bunlarla kifayətlənmədi.**

Hələ qarşıda görüləsi işlər vardı.

Yenə də keçmiş havadarlarına və müdafiəçilərinə arxalanan Ermənistan kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatın bir sıra maddələrinin icrasını ləngidirdi.

**Nəyi nə vaxt və necə etməyi hamıdan yaxşı bilən cənab İlham Əliyev isə təmkinlə, bir-birinin ardınca zəruri addımlar atırdı.**

- Əvvəlcə lazımi tədbirlər görülməklə ordumuz yenidən gərəkli vasitələrlə tam təmin edildi, "dəmir yumruq" hazır vəziyyətə gətirildi.
- Ən çətin işlərdən biri sayılan, həqiqi xəritəsi ermənilər tərəfindən bizə təqdim olunmamış mina sahələrinin təmizlənməsinə başlanıldı.
- Böyük qayıdışa dair dövlət proqramı qəbul edilərək yeni yaşayış məntəqələrinin salınmasına, keçmiş məcburi köçkünlərin geriyə dönməsinə start verildi.
- Doğma torpağa qayıdanların rahat yaşamları üçün irəlicədən müvafiq və zəruri infrastrukturlar yaradılır, yeni iş yerləri açılır.
- Dövlət başçısının sərəncamları əsasında 44 avtomobil yolu layihəsinin tikintisi yerinə yetirilir ki, artıq onlardan bir qisminin - Zəfər yolu, Əhmədbəyli - Füzuli-Şuşa yolu, Füzuli-Hadrut yolu, Bərdə-Ağdam yolu və digərlərinin inşası başa çatdırılmışdır.

*Böyük qayıdışla yanaşı, Qarabağ və Şərqi Zəngəzur bölgəsi həm də "yaşıl enerji" istehsalı və turizm məkanına çevrilməkdədir.*

İndiyədək burada ümumi gücü 307 meqavat olan 38 su-elektrik stansiyası tikilib.

Bütövlükdə son 5 il ərzində Qarabağ və Şərqi Zəngəzurda 330 və 110 kilovoltluq 12 yarımstansiya inşa olunub.

**Hazırda bölgədə 60 mindən çox insan yaşayır, çalışır və təhsil alır.**

❖ ❖ ❖

*Keçən ilin 11-22 noyabrında Bakıda keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) Azərbaycanın yüksək beynəlxalq nüfuzunun təsdiqinə çevrildi.*

Yüksək təşkilatçılıq səviyyəsi və qəbul edilən qərarların əhəmiyyətinə görə bu tədbir inkişaf etməkdə olan ölkələrin iqlim dəyişmələrinin fəsadları ilə intensiv mübarizəyə verəcəyi yeni maliyyə dəstəyi, habelə Paris Sazişinin beynəlxalq karbon bazarlarına dair 6-cı maddəsinin tam işlək vəziyyətə gətirilməsi ilə yadda qaldı.

❖ ❖ ❖

**Ötən 5 ilin ən mühüm hadisələrindən biri, şübhəsiz ki, dünyanın birnömrəli dövlətinin birnömrəli ofisində - Vaşinqtonda Ağ Evdə ABŞ Prezidentinin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri N.Paşinyanın görüşü oldu.**

8 avqust 2025-ci ildə keçirilən bu görüş həm də ABŞ-Azərbaycan münasibətlərinin yeni mərhələsi hesab oluna bilər.

8 avqust görüşündə bir sıra mühüm sənədlər imzalandı.

BELƏ Kİ:

- Azərbaycanla ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üçün Strateji İşçi qrupunun yaradılması barədə memorandum imzalandı.
- Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair saziş layihəsi paraflandı.
- Azərbaycan Respublikası və Ermənistan Respublikası xarici işlər nazirləri ATƏT-in Minsk qrupunun bağlanması ilə bağlı ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciət imzaladılar.
- D.Tramp 907-ci düzəlişin təsirini dayandırdı.

Bu görüşün ən mühüm məqamı isə Prezident D.Trampın öz adını verdiyi Zəngəzur dəhlizinin (TRIPP) işə salınması barədə qərarın qəbulu oldu.

**Bütün bunlar hərbi uğurlarımızın davamı idi!**

İqtisadi və beynəlxalq sahədəki nailiyyətlər də onlardan geri qalmır.

*Strateji müttəfiqlik haqqında Şuşa Bəyannaməsini imzaladıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan əl-ələ verərək Türk Dövlətləri Təşkilatına yeni nəfəs, yeni yüksəliş bəxş etdilər.*

Artıq türk dövlətləri birlikdə, bir mövqedən çıxış etməyə, olanlarını bir-biriləri ilə bölüşməyə, əməkdaşlıq etməyə, bir-birilərinin maraqlarını açıq-aydın şəkildə müdafiə etməyə başlamışlar!

**Türk dünyasının yeni güc mərkəzinə çevriləcəyinə şübhə doğurmayan bu birlik və əməkdaşlıq günü-gündən möhkəmlənərək çiçəklənir.**

❖ ❖ ❖

*Ötən beş ilin uğur və nailiyyətləri geniş və möhtəşəm olsa da, yubiley paradında yalnız ölkəmizin hərbi qüdrəti nümayiş olunurdu.*

**Yubiley paradında qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanla bərabər, qardaş Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif də fəxri qonaq qismində iştirak edirdilər.**

**Hərbi paradın açılışı mərasimində parlaq nitq söyləyən Azərbaycan Prezidenti İlham Əliyev ötən dövrdə görülən işlərə qısa bir nəzər saldı:**

*"Biz enerji və nəqliyyat layihələrini uğurla həyata keçirərək bir çox ölkələr, böyük coğrafiya üçün əvəzolunmaz ölkəyə çevrildik. Bütün bu amillərlə bərabər, ordu quruculuğu hər zaman prioritet məsələ olaraq qalırdı. Biz güclü ordu, güclü Silahlı Qüvvələr yaratmışıq. Ordumuzun döyüş qabiliyyətini artırmışıq, ordumuzu ən müasir silahlarla, texnika ilə təchiz etmişik. Bütün bu və digər amillər bizim Qələbəmizi, şanlı Zəfərimizi şərtləndirmişdir".*

**Çıxışının sonunda dövlət başçısı qürurla bəyan etdi:**

*"Biz bu beş ili qürur hissi ilə yaşamışıq. Əminəm ki, bundan sonra Azərbaycan xalqı qəhrəman, müzəffər xalq kimi, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaqdır. Biz - bu torpaqların sahibləri Qarabağa, Şərqi Zəngəzura qayıtmışıq və bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Azərbaycan bayrağı bu torpaqlarda əbədi dalğalanacaqdır".*

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın qazandığı Zəfərin dünyanın böyük bir kəsiminə göstərdiyi müsbət təsiri xüsusi vurğuladı:**

*"Vətən müharibəsi Asiyada və Avropadakı geosiyasi balansı da dəyişdi. Biz nə kin saxlayarıq, nə də keçmişdəki zülmlərin yenidən yaşanmasına izn verərik. Beləliklə, bu Zəfəri bir son olaraq deyil, Qafqazda davamlı sülhə gedən yolun məhək daşı olaraq görürük. Qafqazda sülhün bərqərar olmasının Asiyadan Avropaya qədər bütün bölgənin rifahına xidmət edəcəyi qənaətindəyik".*

**Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif isə iki dövlətin dostluğunun və qardaşlığının əbədi olacağını bildirdi:**

*"Torpaqların azadlığı uğrunda bütün mübarizə dövründə Pakistan qardaş Azərbaycanın yanında bir qaya kimi dayandı. Bundan sonra da belə olacaq".*

Azərbaycanın iqtisadi və hərbi qüdrətinin nümayişinə çevrilən yubiley paradını yaxından və uzaqdan izləyən dostlarımız hədsiz sevindilər, düşmənlərimiz və bədxahlarımız isə dərslərini götürdülər!

❖ ❖ ❖

Zəfər paradından yubiley paradınadək ötən beş il Azərbaycan üçün yeni inkişaf və yüksəliş dövrü oldu.

**Bu dəfə İlham Əliyev Azərbaycanı təkcə qalib dövlət kimi deyil, həm də Cənubi Qafqazda söz sahibi, bu bölgədə sülhün yaradıcısı kimi təqdim etdi!**

Müharibələrin və təbii fəlakətlərin ara vermədiyi bir dünyada insanların və dövlətlərarası əlaqələrin təhlükəsizliyi mühüm əhəmiyyət kəsb edir.

Bu, Çindən Avropayadək uzanan Orta dəhlizin önəmini daha da artırır.

O dəhlizin ki, türk dövlətlərinin bir-biriləri ilə quru əlaqələrinin qapadılması, bir-birilərindən ayrı salınması üçün kəsilmişdi.

*Bu gün Orta dəhlizi reallığa çevirməklə Azərbaycan Prezidenti həm də türk dünyasını yenidən birləşdirir və bir-birilərinə daha da yaxınlaşdırır.*

Bu dəhlizdən istifadə etmək üçün Cənubi Qafqaza üz tutanlar hökmən Azərbaycanla da razılaşmalıdırlar.

**Bəli, Azərbaycan daha diktə edilən deyil, diktə edən dövlətdir!**

*Qüdrətli ordusu ilə işğalçıları məhv edərək torpaqlarını geri qaytaran, ərazisində bir nəfər belə separatçının və əcnəbi əsgərin olmadığı qüdrətli qalib dövlətdir!*

**İlham Əliyev Azərbaycanı daim insanlara və dövlətlərə sülh və əməkdaşlıq təklif edir, özünün reallaşdırdığı layihələrdə onlara səxavətlə yer ayırır.**

Təhdidlər, zor gücü ilə danışmaq niyyətinə düşənləri isə "dəmir yumruq"la başa salır və öz yerini göstərir!

Bütün bu deyilənləri Azərbaycanın son beş ildəki inkişafı və keçirdiyi möhtəşəm hərbi paradı da bir daha təsdiq edir.

**Bəxtiyar SADIQOV**

# Azərbaycanın xarici siyasətinin uğurları

## Azərbaycan-ABŞ Beyin Mərkəzlərinin I Forumunda Vaşinqton sammiti müzakirə olunub

Bakıda Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) təşkilatçılığı ilə "Ortaq baxışlar: Strateji tərəfdaşlıq naminə Azərbaycan-ABŞ dialoqu" mövzusuna həsr edilən Azərbaycan-ABŞ Beyin Mərkəzlərinin I Forumu keçirilir.











AZƏRTAC xəbər verir ki, açılışda Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev çıxış edərək forumun əhəmiyyətindən danışıb. O vurğulayıb ki, 8 avqust görüşü Azərbaycan-ABŞ əməkdaşlığı üçün yeni imkanlar açır. Son 30 il ərzində əməkdaşlığımız əsasən enerji sektorunda olub, lakin hazırda digər sahələrdə də tərəfdaşlıq üçün geniş perspektivlər mövcuddur.

ADA Universitetinin rektoru Hafiz Paşayev qeyd edib ki, səfirlərimiz beyin mərkəzləri ilə bağlı müzakirələri diqqətlə izləməlidir. "Vaşinqtona getdiyim ilk gündən ABŞ-də gördüyüm çoxsaylı maraqlı məqamlar diqqətimi çəkib. Məni ən çox təəccübləndirən isə beyin mərkəzlərinin geniş şəbəkəsi və onların intensiv fəaliyyəti olub. Həmin illər ərzində yeni dostlar qazandığımı və müxtəlif ölkələrin ABŞ-də özlərini necə təqdim etdiklərini xatırlayıram. O dövrdə Azərbaycandan ABŞ-yə səfər edənlər çox az idi və diplomatiya mənim üçün tamamilə yeni bir sahə sayılırdı. ABŞ-də Azərbaycan barədə məlumat isə kifayət qədər deyildi, ölkəmizi tanımırdılar. Lakin bu gün dünyanın bir çox ölkəsində Azərbaycana böyük maraq göstərilir", - deyə H.Paşayev vurğulayıb.

Atlantik Konsul Beyin Mərkəzinin Avrasiya şöbəsinin baş direktoru Con Herbst bildirib ki, ilk Azərbaycan-ABŞ Forumunun keçirilməsi gələcəkdə genişlənən əməkdaşlığa, Bakı-Vaşinqton qarşılıqlı işbirliyinə töhfə verəcək. Biz Azərbaycan və Mərkəzi Asiya ölkələri ilə müxtəlif formatlarda sıx əməkdaşlıq edəcəyik ki, belə forumlar gələcəkdə də keçirilsin. Azərbaycan Prezidenti İlham Əliyev və ABŞ Prezidenti Donald Tramp arasında keçirilmiş görüşlərin nəticələri həm Azərbaycan, həm də regionun qonşu dövlətləri üçün olduqca uğurlu hesab edilir. ABŞ-Azərbaycan münasibətlərində dönüş nöqtəsi isə Prezident İlham Əliyev, Prezident Donald Tramp və Baş nazir Nikol Paşinyan arasında imzalanan vacib sənəd oldu. Bu, Ermənistan ilə Azərbaycan arasında sülh sazişinin imzalanması üçün mühüm bir zəmin yaradıb", - deyə Con Herbst əlavə edib.

Daha sonra "AnewZ" media qurumunun baş redaktor müavini Orxan Amaşovun moderatorluğu ilə keçirilən sessiyada "Vaşinqton sammitinin qiymətləndirilməsi və ABŞ-Azərbaycan əlaqələrinə təsiri" mövzusu müzakirə olunub.

Avrasiya Təhlükəsizlik və Rifah Proqramının baş direktoru Kamran Bokhari Cənubi Qafqazda güclər balansının ciddi şəkildə dəyişdiyinə diqqət çəkib: "Azərbaycanın müharibədə qazandığı Zəfər regionda yeni reallıqlar yaradıb. Artıq Cənubi Qafqaz özü geniş geosiyasi dəhlizə çevrilə biləcək potensiala malikdir. Bu isə olduqca mühüm məsələdir".

O qeyd edib ki, Azərbaycanla Naxçıvanı birləşdirən, Ermənistandan keçməsi nəzərdə tutulan dəhliz də bu baxımdan strateji əhəmiyyət daşıyır. Müharibədən dərhal sonra iki dövlət arasında əldə edilən razılaşmalarda da bu məsələ xüsusi müzakirə olunub. "Tramp administrasiyası da bu marşruta xüsusi diqqət ayırıb, çünki həmin xətt Qərb-Şərq əlaqələrinin genişlənməsi üçün yeni imkanlar yaradır. Bu, eyni zamanda ABŞ-nin Azərbaycanla münasibətlərində yeni bir mərhələ və Vaşinqtonun Cənubi Qafqaz regionuna indiyədək olmadığı qədər yaxınlaşması deməkdir", - deyə Kamran Bokhari vurğulayıb.

O, Azərbaycanın regionda söz sahibi olan bir aktora çevrildiyinə diqqət çəkərək deyib: "Şimal və cənub qonşularının strateji çətinliklərlə üzləşdiyi bir zamanda Azərbaycanın xüsusilə vasitəçilik sahəsində mühüm rol oynadığını görürük. Çünki ətraf ölkələr müharibələr və müxtəlif geosiyasi çaxnaşmalardan əziyyət çəkir. Azərbaycanın ətrafında proseslər sürətlə dəyişir və bu vəziyyət ölkə üçün yeni imkanlar yaradır. Düşünürəm ki, Azərbaycan bu imkanlardan uğurla istifadə edir".

Milli Məclisin deputatı Fariz İsmayılzadə bildirib ki, ABŞ-nin Xəzər regionuna artan marağı müşahidə edilir. Vaşinqton sənədlərinin imzalanması ABŞ-nin artan marağının çox mühüm bir mərhələsi olub: "Artıq ikitərəfli dialoqda dinamika var. Azərbaycan iqtisadiyyatın digər sahələrinə, o cümlədən bərpaolunan enerji, nəqliyyat-logistika, texnologiyalar sahələrinə sərmayə, yeni gəlir gətirə biləcək istiqamətlərə diqqət yetirir. Düşünürəm ki, burada ABŞ-nin rolu çox vacib ola bilər. Burada ABŞ texnologiyasını, texnologiyaların transferini, investisiyaları nəzərdə tuturam. Ölkəmiz ABŞ-Azərbaycan münasibətlərinin bu yeni səhifəsinə iqtisadi və texnoloji inkişaf prizmasından baxır. Buraya həmçinin süni intellekt də daxildir. Bu sahədə Azərbaycanın elə də böyük təcrübəsi yoxdur və biz ABŞ-dən öyrənə bilərik".

Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin sədri Fərhad Məmmədov isə ABŞ-nin sabiq prezidenti Co Bayden administrasiyasının fəaliyyətini xatırladaraq bildirib: "Baydenin regionla bağlı apardığı siyasət gözlənilən nəticələri vermədi. Azərbaycan öz ərazilərini işğaldan azad etsə də, Bayden administrasiyası həmin dövrdə birtərəfli və qərəzli yanaşma nümayiş etdirdi. Bu yanaşma Azərbaycan ilə ABŞ arasındakı ikitərəfli əlaqələrin gərginləşməsinə səbəb oldu və erməni lobbisinin təsiri ABŞ-nin mövqeyini xeyli uğursuzlaşdırdı".

F.Məmmədov Donald Trampın ABŞ-də prezident seçilməsinin Ermənistan hakimiyyətinə ciddi təsir göstərdiyini vurğulayıb. O, Tramp administrasiyasının məsələyə daha hüquqi balansla yanaşdığını qeyd edərək deyib: "Üçtərəfli Bəyannamə imzalandıqdan sonra Ermənistan və Azərbaycan bu formatı yeganə müzakirə platforması kimi qəbul edir. Həmin görüşdən sonra sülh müqaviləsinin hazırlanması istiqamətində konkret addımlar atılıb".

Sessiya müzakirələrlə davam edib.

## Vaşinqton sammitindən sonra Azərbaycan-Ermənistan sülh prosesinin təhlili

Noyabrın 18-də Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) təşkilatçılığı ilə Bakıda keçirilən Azərbaycan-ABŞ Beyin Mərkəzlərinin I Forumu çərçivəsində "Vaşinqton sammitindən sonra Azərbaycan-Ermənistan sülh prosesi" mövzusunda müzakirələr aparılıb.

AZƏRTAC xəbər verir ki, BMTM-in baş məsləhətçisi Yunis Qurbanovun moderatorluğu ilə keçirilən sessiyada son dövrdə baş verən geosiyasi dəyişikliklərin Cənubi Qafqaz və qonşu regionlarda qüvvələr balansına təsiri təhlil olunub. Həmçinin Vaşinqton sammitinin nəticələrinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına təsirləri müzakirə edilib.

Sessiyada çıxış edən "New Lines Institute"nun Analitik İnkişaf və Təlim üzrə baş direktoru Eugene Çausovski bildirib ki, geosiyasi kontekstdən başlamaq zəruridir, çünki Azərbaycan-Ermənistan sülh prosesində yalnız regional deyil, həm də qlobal güclər maraqlıdır. Cənubi Qafqazın strateji əhəmiyyəti son illərdə daha da artıb və bu prosesdə Azərbaycan aparıcı aktorlardan birinə çevrilib. Regionda baş verən dəyişikliklər, xüsusilə də müharibədən sonra yaranmış yeni reallıqlar sülh prosesinin istiqamətini müəyyən edən əsas amillərdir.

O qeyd edib ki, "Tramp marşrutu" (Zəngəzur dəhlizi) və enerji sahəsinin inkişafı Tramp administrasiyası tərəfindən dəstəklənən vacib təşəbbüslərdən biridir. Bu, yalnız iqtisadi əməkdaşlığı genişləndirmir, eyni zamanda Avrasiyada enerji təhlükəsizliyini gücləndirən strateji bir layihədir. Azərbaycan bu marşrutun əsas hissəsi olmaqla region ölkələri arasında logistik əməkdaşlığın mərkəzi rolunu oynayır. Enerji resurslarının şaxələndirilməsi baxımından da xüsusi əhəmiyyət daşıyır.

"Təhlükəsizlik məsələləri hələlik digər sahələr qədər dinamik olmasa da, davamlı sülhün təmin edilməsi bu istiqamətdə irəliləyiş üçün əsas şərtdir. Sülh bərqərar olduqda iqtisadi əlaqələr dərinləşəcək, ticarət axınları genişlənəcək və region ölkələrinin bir-biri ilə əməkdaşlıq imkanları daha real olacaq. Bu prosesdən hər iki ölkə qazandığı kimi, regionun digər dövlətləri də fayda əldə edəcək. Azərbaycan isə bu çərçivədə xüsusi rola malikdir. Ölkə həm enerji, həm nəqliyyat, həm də diplomatik sahələrdə özünü etibarlı tərəfdaş kimi təsdiqləyib", - deyə baş direktor vurğulayıb.

Atlantik Şuranın qeyri-rezident baş elmi işçisi və geosiyasi analitik Rich Outzenin fikrincə, ABŞ Prezidenti Donald Trampın qısa müddətdə əldə etdiyi nəticələr olduqca unikaldır. Onun fərqli yanaşması, sistemdənkənar qərarvermə üslubu və nizamlanmış güc balansına əsaslanan praqmatizmi regional səviyyədə real dəyişikliklər yaradıb və bu gün söhbət etdiyimiz proseslərə təkan verir.

Azərbaycan ilə Mərkəzi Asiya arasında əlaqələrin güclənməsinin təəccüblü olmadığını vurğulayan Rich Outzen əlavə edib: "Çünki Azərbaycan regionun sabitliyi üçün mühüm rol oynayıb. Azərbaycan və Ermənistan arasındakı sülh prosesi isə düşünürəm ki, daha sürətlə irəliləyəcək. Buna səbəb Tramp administrasiyasının bu məsələlərə yanaşmasının əvvəlki ABŞ hökumətlərindən müəyyən qədər fərqlənməsidir. Administrasiya daha çox praqmatik və balanslaşdırılmış mövqe ortaya qoyur, region ölkələrinin suverenliyinə və ərazi bütövlüyünə hörmət prinsipini prioritet kimi qəbul edir. Vaşinqton sammitinin keçirilməsi də bu yanaşmanın məntiqi davamı idi və Azərbaycan-Ermənistan münasibətlərində mühüm bir mərhələnin, yəni danışıqların kulminasiya nöqtəsinin göstəricisi sayılır. Bu, uzun illər aparılan diplomatik səylərin nəticəsi kimi qiymətləndirilə bilər".

Mərkəzi Asiya-Qafqaz İnstitutunun (CACI) Avrasiya üzrə baş elmi işçisi Con DiPirro deyib ki, hazırda bir çox mühüm geosiyasi dəyişikliyin baş verdiyini görürük. Cənubi Qafqaz Mərkəzi Asiya ilə Avropa arasında strateji körpü rolunu oynayır. O həmçinin qeyd edib: "Sabit və təsirli bir Cənubi Qafqaz ABŞ-nin marağındadır. Mən bu bölgəni bir növ arxitektura kimi dəyərləndirirəm. ABŞ, Avropa və digər tərəfdaşlar üçün Orta dəhlizin tam reallaşması üçün belə bir regional arxitektura zəruridir. Əgər prosesi təhlil etsək görərik ki, belə bir arxitekturanın formalaşması və davamlı olması üçün əvvəlcə TRIPP marşrutu inkişaf etdirilməlidir. Bu marşrutun inkişafı isə Ermənistanda siyasi davamlılıq tələb edir".

ADA Universitetinin Tədris işləri üzrə prorektorunun müşaviri dosent Anar Vəliyevin sözlərinə görə, Azərbaycanın Orta dəhlizin mərkəzində yerləşməsi ölkəyə regional logistika və iqtisadi layihələrdə daha fəal iştirak imkanı yaradır. Bununla yanaşı, bölgədəki siyasi proseslər və davam edən münaqişələrin nəticələri gələcək planlara təsir göstərə biləcək amillər olaraq qalır.

Topçubaşov Mərkəzinin direktor müavini Murad Muradov isə deyib ki, yeni dünyamızda əvvəlki yanaşmalar artıq səmərəli olmur, çünki qlobal reallıqlar və geosiyasi çağırışlar yeni strategiyalar və fərqli baxışlar tələb edir. Keçmişin modelləri bu günün dinamik və mürəkkəb dünyasında işləməyəcək. Bu baxımdan Vaşinqton sammiti xüsusi əhəmiyyət kəsb edir. O özlüyündə böyük bir uğurun və irəliləyişin nümunəsi kimi qiymətləndirilə bilər.

M.Muradov qeyd edib ki, sammit Azərbaycan, Ermənistan və ABŞ olmaqla hər üç ölkə üçün strateji fürsətlər yaradıb. "Düşünürəm ki, Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olmasından sonra regionda sabitlik təmin ediləcək və bunun nəticəsində hər iki ölkəyə xarici investorların daha geniş şəkildə cəlb edilməsi mümkün olacaq. Artıq həyata keçirilə biləcək real layihələr mövcuddur və bu layihələr iqtisadi əməkdaşlığı genişləndirmək, infrastrukturun inkişafını sürətləndirmək və regional inteqrasiyanı gücləndirmək potensialına malikdir", - deyə o vurğulayıb.

Sessiya işini mövzu ətrafında müzakirələrlə davam etdirib.

## Azərbaycan-ABŞ Beyin Mərkəzlərinin I Forumunda enerji təhlükəsizliyi mövzusu müzakirə edilib

Noyabrın 18-də Bakıda keçirilən Azərbaycan-ABŞ Beyin Mərkəzlərinin I Forumu çərçivəsində "Enerji təhlükəsizliyi və bağlantılar" mövzusunda müzakirələr aparılıb.

AZƏRTAC xəbər verir ki, ADA Universitetinin Siyasi tədqiqatlar, təhlil və nəşrlər üzrə direktoru Damjan Krnjevic Miskovicin moderatorluğu ilə keçirilən sessiyada Azərbaycanın enerji dəhlizləri, nəqliyyat marşrutları və formalaşan rəqəmsal şəbəkələr vasitəsilə Mərkəzi Asiya ilə Avropanı birləşdirən əsas rolu təhlil olunub. Həmçinin "Cənub qaz dəhlizi"nin genişləndirilməsi, bərpaolunan enerji üzrə əməkdaşlıq və Orta dəhliz kimi multimodal nəqliyyat marşrutlarının inkişafı müzakirə edilib.

Sessiyada çıxış edən Amerika Enerji Təhlükəsizliyi Təşəbbüsünün baş elmi işçisi və direktoru Brigam Makkoun (Brigham McCown) qeyd edib ki, qlobal enerji layihələrində ABŞ kimi dövlətlərin etimadını qazanmaq asan deyil. Lakin ABŞ-nin Trans-Xəzər nəqliyyat marşrutuna xüsusi maraq göstərməsi də məhz Azərbaycanın etibarlı tərəfdaş kimi formalaşması ilə bağlıdır. "Bu marşrutun strateji əhəmiyyəti gələcəkdə daha da artacaq. Trans-Xəzər marşrutu regional riskləri azaltmağa və enerji axınlarının dayanıqlılığını gücləndirməyə imkan yaradır.

Azərbaycan bu enerji əlaqələrinin mərkəzində yerləşir. Bu dəhlizlərin uğurlu fəaliyyəti üçün yalnız infrastruktur deyil, həm də səmərəli idarəetmə və maliyyələşdirmə mexanizmləri vacibdir. Bununla yanaşı, Azərbaycanın bərpaolunan enerji potensialı da diqqət çəkir. ABŞ kimi ölkələr bu sahədə əməkdaşlıq etməyə və dəstək göstərməyə hazırdırlar", - deyə B.Makkoun əlavə edib.

İqtisadi və Sosial İnkişaf Mərkəzinin sədri Vüqar Bayramov qeyd edib ki, enerji təhlükəsizliyi region üçün strateji əhəmiyyət daşıyır. "Cənub qaz dəhlizi" Azərbaycan qazını Avropaya çatdıran və Avropanın enerji şaxələndirməsinə töhfə verən əsas xətdir. Bu dəhlizdən həm Azərbaycan, həm Avropa ölkələri, həm də tranzit iştirakçılar kifayət qədər faydalanır. Sülh razılaşması və sabitlik isə bu və digər enerji layihələrinin daha dayanıqlı şəkildə inkişafına imkan verəcək. "Belə ki, Azərbaycan hazırda 14 ölkəyə təbii qaz ixrac edir və "Cənub qaz dəhlizi" üzrə həcmlər hər il yüksəlməkdədir. Rəsmi göstəricilərə görə, 2021-ci ildə Azərbaycan "Cənub qaz dəhlizi" vasitəsilə xarici ölkələrə 17,8 milyard kubmetr qaz ixrac edib. 2024-cü ildə isə bu göstərici 22,9 milyard kubmetrə çatıb. Bu, 2021-ci illə müqayisədə 28,65 faiz artım deməkdir. Azərbaycanın enerji siyasəti təkcə region deyil, həm də Avropanın enerji təhlükəsizliyi üçün strateji əhəmiyyət daşıyır. "Cənub qaz dəhlizi"nin genişləndirilməsi, TAP və TANAP kimi layihələrin ötürücülük qabiliyyətinin artırılması, eləcə də Xəzər hövzəsi üzrə yeni nəqliyyat marşrutları bu prosesə əlavə dinamika gətirir. Azərbaycanın artan enerji potensialı ölkənin qlobal enerji bazarındakı rolunu daha da gücləndirir və qarşıdakı illərdə qaz ixracının daha da artacağı gözlənilir", - deyə V.Bayramov vurğulayıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı deyib ki, Azərbaycan bu sinxron marşrut boyunca infrastrukturun yenilənməsinə rəhbərlik edir. Lakin biz anlayırıq ki, hər bir zəncir ən zəif halqası qədər möhkəmdir. Buna görə də infrastrukturun sinxron şəkildə yenilənməsi çox vacibdir.

O həmçinin bildirib: "Biz bir-birimizlə müharibə etməməliyik, iqtisadi inkişaf üçün yeni imkanlar tapmalıyıq. Buna görə də biz ABŞ tərəfindən dəstəklənən TRIPP layihəsində çox maraqlıyıq".

"Danube Institute US"nin tədqiqat direktoru Carlos Roa enerji, texnologiya və kritik resurslara böyük tələbatın olduğuna diqqət çəkərək deyib: "Lakin investisiyalar yetərli deyil. Dövlət kapitalizmi çərçivəsində vəsaitlər milli maraqlar üçün ölkə daxilində yönəldilir. ABŞ və Avropa da milli maraqlarını qorumaq üçün xarici yardımları və pul axınlarını məhdudlaşdırır. Bu yeni model iqtisadi islahatları gücləndirir".

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri Şahmar Hacıyev isə qeyd edib ki, Azərbaycan bu prosesin mərkəzində dayanır və regionda strateji əhəmiyyətə malik bir enerji qovşağı funksiyasını daşıyır. "Ölkəmiz həm Mərkəzi Asiyanı, həm də Avropanı birləşdirən əsas tranzit məkanına çevrilir. Xüsusilə "Cənub qaz dəhlizi", Trans-Xəzər marşrutu və digər regional layihələr enerji tədarük zəncirinin gücləndirilməsinə böyük töhfə verir.

Bununla yanaşı, Azərbaycanın bərpaolunan enerji potensialı da kifayət qədər yüksəkdir. Külək, günəş və "yaşıl enerji" layihələri ölkəmizin gələcək enerji xəritəsində mühüm yer tutur. Bu sahədə həyata keçirilən təşəbbüslər region üçün "yaşıl dəhliz"lərin yaradılmasına imkan verir və qlobal iqlim gündəliyinə uyğun şəkildə dayanıqlı inkişaf perspektivlərini gücləndirir.

Nəticə etibarilə Azərbaycan həm ənənəvi enerji dəhlizlərinin inkişafında, həm də bərpaolunan enerji üzrə yeni əməkdaşlıq formatlarının qurulmasında aparıcı mövqeyə malikdir. Bu isə ölkəmizi regionun enerji təhlükəsizliyi və iqtisadi inteqrasiyası baxımından əvəzsiz tərəfdaşa çevirir", - deyə Ş.Hacıyev vurğulayıb.

Sessiya müzakirələrlə davam edib.

# Azərbaycanın xarici siyasətinin uğurları

## Yeni geosiyasi əməkdaşlıq modeli

**Zəngin və dinamik xarici siyasət bugünkü Azərbaycanın ən mühüm reallığıdır. Ölkəmizin təkcə regionumuzda deyil, onun hüdudlarından kənarda olan proseslərə də təsir və nüfuz edə bilən geosiyasi vahidə çevrilməsi dövlətimizə bir sıra qlobal hadisələrin vacib aktoru qismində çıxış etməyə imkan verir. Gündəmdəki proses və hədəflər rəsmi Bakının yiyələndiyi orta güc statusunun tələb və məsuliyyətindən irəli gələn gerçəkliyin diktə etdiyi formatdır.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə Daşkənddə keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirakı regionda yeni geosiyasi əməkdaşlıq modelinin formalaşdığını bir daha nümayiş etdirdi. Bu baxımdan, Məşvərət görüşü Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında yaranan mərkəzləşdirilmiş, institusional əməkdaşlıq baxımından tarixi mərhələ kimi qiymətləndirilməlidir.

Prezident İlham Əliyev Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündəki çıxışında qeyd edib ki, Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında münasibətlər xüsusi xarakter daşıyır: "Bizi çoxəsrlik ortaq tarix, mənəvi və mədəni irs, qardaşlıq, dostluq, həmrəylik birləşdirir. Biz bu əlaqələri nəinki qoruyub saxlamışıq, həm də onlara strateji tərəfdaşlıq xarakterinə malik olan yeni dinamika bəxş etmişik".

### Dialoq, inteqrasiya və sabitliyə xidmət edən müzakirələr

Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşü formatının təşəbbüskarı Özbəkistan Prezidenti Şavkat Mirziyoyevdir. O, 2017-ci ildə BMT Baş Assambleyasının sessiyalarından birində belə görüşlərin təşkili təklifi ilə çıxış edib, 2018-ci ildə ilk dəfə Qazaxıstanda birinci görüş keçirilib, daha sonra Mərkəzi Asiyanın müxtəlif ölkələrində - Özbəkistanda, Türkmənistanda, Qırğızıstanda, Tacikistanda müvafiq görüşlərin keçirilməsinə başlanıb.

Məşvərət formatının məqsədi regionda dayanıqlı dialoq mexanizmi yaratmaq, Mərkəzi Asiya ölkələri arasında qarşılıqlı inamı və əməkdaşlığı artırmaqdan ibarətdir. Özbəkistanda keçirilən 7-ci görüşün ən mühüm məqamı isə onun "Mərkəzi Asiya + Azərbaycan" formatında təşkili, bu ildən Azərbaycanın da Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə tamhüquqlu üzv statusu ilə təmsilçiliyidir.

Məşvərət görüşləri bir neçə əsas məqsədə xidmət edir. Bunlardan birincisi, təbii ki, liderlər və onların şəxsində ölkələr arasında siyasi dialoqun gücləndirilməsidir. Görüşlər region dövlətləri arasında yüksəksəviyyəli dialoqu təmin edir, ortaq strateji məsələlər - təhlükəsizlik, iqtisadi inkişaf, enerji, nəqliyyat və digər sahələr üzrə fikir mübadiləsi aparmağa imkan yaradır.

Digər tərəfdən, belə görüş və müzakirələr regional inteqrasiya, sabitlik üçün də mühiti gücləndirir, Mərkəzi Asiyanın geniş əməkdaşlıq məkanına çevrilməsinə xidmət göstərir. Təsadüfi deyil ki, Şavkat Mirziyoyev bu görüşlərin "regionu sabit, iqtisadi cəhətdən inkişaf etmiş və firavan bir coğrafi məkan halına gətirmək" məqsədində olduğunu vurğulayıb. "Həmrəyliyin gücləndirilməsi və birgə inkişafa can atmaq Mərkəzi Asiyanın beynəlxalq mövqeyinin möhkəmlənməsinə və qlobal rolunun artırılmasına töhfə verir. "Mərkəzi Asiya +" formatlarının qarşılıqlı fəaliyyəti güclənib. Region nüfuzlu beynəlxalq platformalarda vahid mövqedən çıxış edir. Şübhəsiz ki, Azərbaycanın bizim formata qoşulması ilə regionumuzun qlobal miqyasda səsi daha əhəmiyyətli olacaq", - deyə Özbəkistan Prezidenti xüsusi qeyd edib.

### "Mərkəzi Asiya Birliyi" modelinə keçid perspektivi

İnfrastruktur və tranzit imkanlarının inkişafı da ölkə liderlərinin müzakirələrdə diqqət yetirdikləri əsas məqamlardandır. Görüşlərdə nəqliyyat, tranzit üzrə ortaq layihələr müzakirə edilir ki, bu da Mərkəzi Asiya ölkələrinin bir-biri ilə daha sıx iqtisadi və logistika əlaqələri qurmasına kömək göstərir. Görüşlər "məşvərət" formatında keçirildiyindən, birbaşa ittifaq və yaxud birliyə bənzər suveren qərar orqanı kimi deyil, məsləhət, dialoq platforması kimi işləyir. Bu da liderlərə strateji mövzuları müzakirə etmək, ideyalar irəli sürmək və region üçün ortaq vizyon formalaşdırmaq üçün açıq meydan verir.

Son görüşlərdə artıq "Mərkəzi Asiya Birliyi" modelinə keçid ideyası müzakirə olunmaqdadır. Məsələn, əsasnamə hazırlanması, rotasiyalı katiblik yaradılması və milli koordinatorların səviyyəsi kimi yeni institutların qurulması təklif edilir.

Bu ildən Azərbaycanın da Məşvərət görüşündə tamhüquqlu iştirakçı kimi təmsilçiliyi platformanın coğrafi və siyasi dairəsinin genişlənməsi deməkdir. Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə xüsusi vurğulanıb: "Qardaş Azərbaycanın iştirakı ilə formatımızın genişləndirilməsi Mərkəzi Asiyanın qarşısında xüsusilə beynəlxalq tranzit, logistika və energetika sahələrində yeni imkanlar, geniş əməkdaşlıq üfüqləri açacaq. Bu gün əminliklə deyə bilərik ki, Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərinin formatı baş tutub. Bu format öz səmərəliliyini sübut edib, təkcə regionumuzda mövcud problemlərin müzakirə olunduğu deyil, həm də yeni təşəbbüslərin və təkliflərin fəal şəkildə irəli sürüldüyü real, özünəməxsus yeganə platformaya çevrilib".

### Regionun gələcək siyasi xəritəsinin mühüm konturları

Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə Prezident İlham Əliyevin geniş çıxışı və səsləndirdiyi mühüm məqamlar regionun gələcək siyasi xəritəsinin mühüm konturlarını müəyyənləşdirdi. Dövlətimizin başçısının vurğuladığı əsas ideya Azərbaycanın artıq Mərkəzi Asiya əməkdaşlıq formatının tamhüquqlu üzvü olmasıdır. Bu tezis iki strateji reallığı nümayiş etdirir. Birincisi, Azərbaycan və Mərkəzi Asiya ölkələri tarixi, mədəni və mənəvi bağları artıq siyasi instituta çeviriblər. Eyni zamanda türk xalqlarının ortaq irsi, ortaq tarix və ortaq təhlükəsizlik mühitinə reaksiyaları mərkəzləşdirilmiş platformada ifadə olunur.

Mərkəzi Asiya artıq yalnız 5 ölkədən ibarət qapalı coğrafi birlik deyil. Azərbaycan Cənubi Qafqazdan Mərkəzi Asiyaya uzanan körpü kimi bu platformanın imkanlarını daha da genişləndirir. Bu inteqrasiya regionda yeni geosiyasi ağırlıq mərkəzinin - Avrasiya türk strateji məkanının formalaşdığını təsdiqləyir.

Azərbaycan bundan sonra Mərkəzi Asiya regionu çərçivəsində keçirilən dövlət başçıları sammitlərində, hökumətlərarası görüşlərdə, nazirlər səviyyəsində iclaslarda, dövlət qurumları və ictimai təşkilatların birgə platformalarında daimi və tamhüquqlu üzv kimi fəal iştirak edəcək. Bu, Azərbaycan diplomatiyasının türk dünyası ilə inteqrasiyanın yeni - institusional mərhələsinə keçidinin rəsmi təsdiqidir.

Eyni zamanda bir mühüm məqamı vurğulayaq ki, bununla Azərbaycanın Cənubi Qafqazdakı rolu da dəyişmir - ölkəmiz paralel geosiyasi xətti uğurla davam etdirəcək. Azərbaycan bölgənin lider ölkəsi kimi mühüm rola malikdir və Mərkəzi Asiya platformalarında iştirak ölkəmizin bu rolunu qətiyyən inkar etmir. Azərbaycan həm sülhün təşviqi, kommunikasiyaların açılması, inteqrasiya prosesləri ilə bağlı fəaliyyətini davam etdirir, həm də Mərkəzi Asiya, Türk Dövlətləri Təşkilatı, "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri kimi geniş regional platformalarda paralel və güclənən mövqelərə sahib olur.

Beləliklə, ölkəmiz geniş coğrafiyalı regional siyasətin əsas oyunçusuna çevrilir. Bu baxımdan, Azərbaycan liderinin Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə iştirakının çox mühüm strateji nəticələri var. İlk növbədə Azərbaycan-Mərkəzi Asiya siyasi formatı rəsmi şəkildə təsbit olundu və ölkəmiz tam etibarlı tərəfdaş rolunu qazandı. Türk dünyası daxilində vahid strateji məkan daha da dərinləşdi. Mədəni əlaqələr real siyasi gücə çevrildi, regional əməkdaşlıq enerji və nəqliyyatdan daha geniş sahələrə yayılmış oldu. Təhlükəsizlik, iqtisadi inkişaf, elm, təhsil, mədəniyyət və s. sahələr üzrə yeni layihələr üçün zəmin formalaşdı. Azərbaycan Avrasiyanın mərkəzi geosiyasi aktorlarından birinə çevrilmiş oldu, eyni zamanda ölkəmizin Mərkəzi Asiya arasında strateji körpü missiyası daha da gücləndirildi. Azərbaycan Prezidentinin belə bir mühüm görüşdə iştirakı Avrasiyada yeni siyasi konfiqurasiyanın formalaşması reallığını təqdim etdi. Azərbaycan Mərkəzi Asiya ilə ortaq tarixi-mədəni irsi real siyasi mexanizmə çevirməklə regionun geosiyasi xəritəsində yeni mərhələnin əsasını qoydu. Azərbaycan Prezidenti görüşdə dedi: "Azərbaycan Mərkəzi Asiya ölkələri ilə müttəfiqlik və strateji tərəfdaşlıq, o cümlədən birgə investisiya fondlarının yaradılması haqqında müqavilə və bəyannamələr imzalayıb. Mütəmadi olaraq keçirilən mədəniyyət günləri, sərgilər, konsertlər xalqlarımızı daha da yaxınlaşdırır, bizim yaxınlığımızı, dostluğumuza verdiyimiz dəyəri nümayiş etdirir.

Azərbaycan Cənubi Qafqazda yerləşsə də, bu gün fəal qarşılıqlı fəaliyyət sayəsində Mərkəzi Asiya və Azərbaycan artıq qlobal miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artan vahid geosiyasi və geoiqtisadi regiondur".

### Mədəni irsin qorunmasına, sivilizasiyalararası dialoqa və modern inkişafa töhfə verən ölkə

Görüş ölkələrimiz arasında əlaqələrin inkişafına, türk və islam dünyasının ortaq maraqlarına xidmət göstərən digər maraqlı proqramlarla da müşayiət edildi. Daşkəndə səfərinin ilk günü Azərbaycan Prezidenti digər liderlərlə birgə Özbəkistanın paytaxtında İslam Sivilizasiyası Mərkəzi ilə tanış oldu. Türk-islam mədəniyyətinin tarixi yaddaşını müasir elmi və texnoloji platformada təqdim edən bu mərkəz Azərbaycan üçün həm mədəni diplomatiyanın, həm də türk dünyası ilə əlaqələrin güclənməsinin vacib elementidir. Mərkəzlə tanışlıq həmçinin Mərkəzi Asiya və Azərbaycan arasında mədəni və mənəvi ortaq dəyərlərin regional siyasi proseslərə real təsir etməyə başladığını bir daha göstərdi. "Dünən biz İslam Sivilizasiyası Mərkəzini ziyarət etdik. Özbəkistan Prezidentinin təşəbbüsü ilə yaradılan bu mərkəz Özbəkistan Prezidentinin ölkənin zəngin mədəni irsinə sadiqliyinin daha bir göstəricisidir. Bəzi ölkələrdə dinimizə qarşı hücumların artdığı bir şəraitdə islamofobiya sistemli xarakter alır. İslam Sivilizasiyası Mərkəzinin açılması bütün dünyaya göstərir ki, islam quruculuq, dözümlülük, dostluq və qardaşlıq dinidir. İslam aləminin görkəmli nümayəndələri dünya elminə, mədəniyyətinə böyük töhfə veriblər və İslam Sivilizasiyası Mərkəzi bunu əyani şəkildə nümayiş etdirir. Əminəm ki, möhtəşəm və nadir ekspozisiyaları olan Daşkənddəki İslam Sivilizasiyası Mərkəzi bütün islam dünyası üçün qürur mənbəyinə çevriləcək", - Azərbaycan Prezidenti görüşdə bu məqamı xüsusi vurğuladı.

Eyni zamanda dövlətimizin başçısı cənab İlham Əliyevin noyabrın 15-də Daşkənddə keçirilmiş "Gələcəyin İrsi" Beynəlxalq Mükafatının təqdimat mərasimində iştirakı da Azərbaycanın regional və qlobal səviyyədə yüksələn nüfuzunu əks etdirən mühüm hadisə kimi yadda qaldı. Azərbaycanın yalnız enerji və geoiqtisadi layihələr ölkəsi kimi deyil, həm də mədəni irsin qorunması, sivilizasiyalararası dialoq və modern inkişafın təşviqi sahəsində qlobal aktor kimi rolu aydın göründü. Qeyd edək ki, ölkəmizdən bu mükafata görkəmli muğam ustası, Xalq artisti Alim Qasımov layiq görülüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Mərkəzi Asiya Dövlət Başçılarının Daşkənddə keçirilən 7-ci Məşvərət Görüşündə iştirakı bütün cəhətləri üzrə tarixi bir hadisədir. Ölkəmizin Cənubi Qafqaz platformasında əhəmiyyətli rolunu davam etdirməsinə paralel olaraq eyni zamanda Mərkəzi Asiya istiqamətində də fəaliyyətini genişləndirməsi zaman keçdikcə həm Azərbaycana, həm ümumən regiona mühüm töhfələr verəcəkdir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

## Azərbaycan və Mərkəzi Asiya vahid formata çevrilir

### Tarixi, mədəni, mənəvi əlaqələr siyasi mərkəz halına gəlir

**Azərbaycan Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünün tamhüquqlu iştirakçısı olub. Bu tarixi qərar noyabrın 16-da Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə elan edilib.**

Görüşdə çıxış edən Özbəkistan Prezidenti Şavkat Mirziyoyev qardaş xalqlar üçün tarixi bir gün yaşandığını vurğulayaraq deyib: "Biz Azərbaycan Respublikasının tamhüquqlu iştirakçı qismində Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşü formatına qoşulmasına dair prinsipial qərarlar qəbul edirik. Biz Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında güclü bir körpü quracağıq və vahid əməkdaşlıq məkanının formalaşmasına yol açacağıq. Bu, sözsüz ki, hər iki regionun strateji qarşılıqlı əlaqəsini və dayanıqlılığını gücləndirəcək. Bu vacib qərarı qəbul etdiklərinə görə bütün həmkarlarıma səmimi-qəlbdən təşəkkürümü bildirmək və Məşvərət görüşlərinə tamhüquqlu iştirakçı qismində qoşulması münasibətilə İlham Heydər oğlunu təbrik etmək istəyirəm".

Şavkat Mirziyoyev bildirib ki, həmrəyliyin gücləndirilməsi və birgə inkişafa can atmaq Mərkəzi Asiyanın beynəlxalq mövqeyinin möhkəmlənməsinə və qlobal rolunun artırılmasına töhfə verir. Onun sözlərinə görə, "Mərkəzi Asiya +" formatlarının qarşılıqlı fəaliyyəti güclənib. Region nüfuzlu beynəlxalq platformalarda vahid mövqedən çıxış edir. Azərbaycanın bu formata qoşulması ilə regionun qlobal miqyasda səsi daha əhəmiyyətli olacaq.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev isə söyləyib ki, Azərbaycan bu yeni formatda regional əməkdaşlığın möhkəmləndirilməsinə mühüm töhfə verəcək.

Qırğız Respublikasının Prezidenti Sadır Japarov ölkəsinin Azərbaycanın tamhüquqlu üzv qismində Məşvərət görüşləri formatına qoşulması təşəbbüsünü dəstəklədiyini vurğulayaraq qeyd etdi: "Qardaş Azərbaycanın iştirakı ilə formatımızın genişləndirilməsi Mərkəzi Asiyanın qarşısında xüsusilə beynəlxalq tranzit, logistika və energetika sahələrində yeni imkanlar, geniş əməkdaşlıq üfüqləri açacaq".

Tacikistan Prezidenti Emoməli Rəhmon da ölkəmizi Məşvərət görüşlərinə qoşulması münasibətilə təbrik edərək deyib: "Sevindirici haldır ki, məkanımız beynəlxalq və regional proseslərin mühüm iştirakçısının timsalında öz əhəmiyyətini inamla artırır. Bu, balanslaşdırılıb və region ölkələrinin artan maraqlarının inkişafına səyləri nümayiş etdirir".

Bütün həmkarlarına təşəkkürünü bildirən Prezident İlham Əliyev isə çıxışında qeyd edib ki, Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında münasibətlər xüsusi xarakter daşıyır. Son illər yüksəksəviyyəli qarşılıqlı səfərlər isə müntəzəm xarakter alıb. Son üç ildə İlham Əliyev Mərkəzi Asiya ölkələrində 14 dəfə səfərdə olub, bu müddət ərzində isə həmkarları 23 dəfə Azərbaycana səfər ediblər.

Prezident qeyd edib ki, Azərbaycan Mərkəzi Asiya ölkələri ilə müttəfiqlik və strateji tərəfdaşlıq, o cümlədən birgə investisiya fondlarının yaradılması haqqında müqavilə və bəyannamələr imzalayıb. Ölkəmiz Cənubi Qafqazda yerləşsə də, bu gün fəal qarşılıqlı fəaliyyət sayəsində Mərkəzi Asiya və Azərbaycan artıq qlobal miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artan vahid geosiyasi və geoiqtisadi regiondur. Bu gün Azərbaycan və Mərkəzi Asiya Şərqlə Qərb, Şimalla Cənub arasında birləşdirici bənd və körpüdür.

Göründüyü kimi, Azərbaycan və Mərkəzi Asiya vahid bir formata çevrilir. Tarixi, mədəni, mənəvi əlaqələrimiz siyasi mərkəz halına gəlir. Mərkəzi Asiya artıq 5 ölkə deyil, Azərbaycan da Mərkəzi Asiyanın tərkib hissəsidir, əməkdaşlıq və məşvərətçi formatın tamhüquqlu üzvüdür.

Bundan sonra Azərbaycan Mərkəzi Asiya çərçivəsində keçirilən görüşlərdə (dövlət, hökumət başçıları, nazirliklər, dövlət və ictimai təşkilatlar və s.) iştirak edəcək. Artıq Azərbaycan və Mərkəzi Asiya ölkələri həm də vahid geosiyasi və geoiqtisadi məkana çevrilməkdədir. Bu proses həm region dövlətlərinin maraqlarını təmin edir, həm də daha geniş coğrafiyada - Avropa və Asiya arasında qarşılıqlı bağlılığı gücləndirir. Statistik göstəricilərə əsasən, Orta dəhliz üzərindən yükdaşımalar sürətlə artır və Zəngəzur dəhlizinin (TRIPP) açılması ilə bu rəqəmlər daha da yüksələcək. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, dəhlizin Azərbaycan hissəsində işlər artıq tamamlanmaq üzrədir.

Ümumiyyətlə, Azərbaycanın bugünkü reallıqlarına nəzər salsaq görərik ki, ölkəmiz, sözün əsl mənasında, müstəqil dövlət kimi dünya xəritəsində öz layiqli yerini tuta bilib. Bütün regional məsələlərdə fəal iştirak edən Azərbaycan sabitlik və inkişaf amilinə çevrilib.

Prezident İlham Əliyevin beynəlxalq aləmdə artan nüfuzu həm ölkəmizi gücləndirir, həm də regionda gedən proseslərə çox müsbət təsir göstərir. Azərbaycan Prezidenti hər zaman qlobal liderlik keyfiyyətini və təşəbbüskarlığını ortaya qoyaraq çox mühüm ideyalar irəli sürür və bu gün də onun təşəbbüsü ilə reallaşan transmilli layihələr ölkəmizə iqtisadi-siyasi dividendlər qazandırmaqdadır. Bütün bunlar Azərbaycanın beynəlxalq münasibətlər sistemində rolunun artmasına böyük təsir göstərməklə yanaşı, İlham Əliyevin də beynəlxalq aləmdə şəxsi nüfuzunun artmasına gətirib çıxarıb.

Ən önəmlisi isə odur ki, Azərbaycan imkanlarını daha da genişləndirərək Avropa ilə Asiya arasında etibarlı tranzit habına çevrilməkdədir. Yəni Mərkəzi Asiya dövlətləri üçün Azərbaycan "Şərq-Qərb" marşrutu üzrə etibarlı tranzit ölkədir.

Ümumiyyətlə, Mərkəzi Asiya ölkələri ilə Azərbaycanın əməkdaşlığı dərinləşdikcə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əhəmiyyəti bir qədər də artacaq. Çünki bu gün Asiyadan Avropaya və ya əksinə işləyən marşrutların ən qısa yolu Azərbaycandan keçir. Ölkəmiz isə bu imkanlarını daha da genişləndirməklə dəhlizin cəlbediciliyini artırır.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları

# Qardaş ölkələrin əlaqələrində yeni tarixi mərhələ

**Dünyada və regionda baş verən geosiyasi proseslər yeni əməkdaşlıq modellərinin formalaşmasını zəruri edir. Bu bir həqiqətdir ki, xalqlar arasında əsrlərin sınağından çıxan mənəvi və mədəni bağlar bu gün müasir siyasi reallıqların aparıcı xəttinə çevrilməkdədir. Məsələyə bu kontekstdən nəzər salsaq görərik ki, Azərbaycanla Mərkəzi Asiya respublikaları arasında əlaqələr artıq yeni tarixi mərhələyə qədəm qoyub. Qarşılıqlı münasibətlər sadəcə ikitərəfli diplomatiyadan ibarət deyil, həmçinin vahid strateji platformaya çevrilməkdədir.**



Azərbaycan son illərdə Mərkəzi Asiya dövlətləri ilə əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində çoxşaxəli və ardıcıl siyasət həyata keçirir. Bu region artıq Azərbaycan üçün strateji tərəfdaşlıq məkanına çevrilib. Prezident İlham Əliyev Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə münasibətlərini belə səciyyələndirib: "Azərbaycanı və Mərkəzi Asiya ölkələrini xalqlarımızın çoxəsrlik qardaşlıq münasibətləri bağlayır. Ortaq mədəni köklər dövlətlərarası əlaqələrin möhkəm bünövrəsini təşkil edir. Otuz ildən artıqdır ki, biz müstəqil dövlətlər kimi həm ikitərəfli, həm də çoxtərəfli formatda fəal şəkildə qarşılıqlı fəaliyyət aparırıq, bir-birimizin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirik, iqtisadi əlaqələri fəal şəkildə inkişaf etdiririk. Mərkəzi Asiya və Azərbaycan artan iqtisadiyyatı, demoqrafiyası və geosiyasi potensialı ilə dünya siyasətində strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur".

Azərbaycanla Mərkəzi Asiya arasında münasibətlərin intensivləşməsinin ən mühüm göstəricilərindən biri yüksəksəviyyəli siyasi dialoqun dinamikliyidir. Son iki ildə dövlətimizin başçısı Mərkəzi Asiya ölkələrinə 10-dan çox rəsmi və işgüzar səfər həyata keçirib. Eyni zamanda qardaş ölkələrin liderləri də Azərbaycana dəfələrlə səfər ediblər. Sözsüz ki, yaranmış isti münasibət strateji tərəfdaşlığın sürətlə genişlənməsinə, əməkdaşlıq gündəliyinin isə daha da zənginləşməsinə təkan verir.

Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında ticarət və sərmayə əlaqələri son illər xüsusi dinamika qazanıb. Ötən il ikitərəfli ticarət dövriyyəsi 3 dəfədən çox, cari ilin ilk 7 ayında isə əlavə olaraq 50 faiz artıb. Bu artım region ölkələrinin Azərbaycan iqtisadiyyatına və tranzit imkanlarına olan etimadının göstəricisidir. Eyni zamanda Azərbaycan və Mərkəzi Asiya dövlətləri tərəfindən artıq birgə sərmayə fondları yaradılıb, növbəti 3 il üçün 1 milyard dollardan artıq qarşılıqlı investisiya portfeli razılaşdırılıb. Sənaye, maşınqayırma, avtomobil və gəmiqayırma, həmçinin kənd təsərrüfatı sahələrində də çoxsaylı layihələr icra olunmaqdadır. Mərkəzi Asiya şirkətlərinin Ələt Azad İqtisadi Zonasına marağı isə əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu göstərir.

Mərkəzi Asiya ölkələrinin Avropa ilə iqtisadi əlaqələrinin genişləndirilməsi baxımından Azərbaycan əvəzolunmaz tranzit ölkədir. Coğrafi mövqeyi və inkişaf etmiş nəqliyyat infrastrukturu sayəsində Azərbaycanın Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən qlobal logistika mərkəzinə çevrilməsi heç də təzə mövzu deyil.

Bu kontekstdə Orta dəhlizin (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi) rolu xüsusilə önəmlidir. Çin-Qazaxıstan sərhədindən başlayaraq, Mərkəzi Asiya ölkələrini, Xəzər dənizini, daha sonra Azərbaycan-Gürcüstan-Türkiyə marşrutunu keçərək Avropaya çıxış verən bu dəhliz ən qısa nəqliyyat yoludur. Bircə faktı qeyd etmək yetərlidir: bu marşrutla yüklər Çindən Avropaya 20-25 günə çatdırılır. Məsafə isə ənənəvi istiqamətlə müqayisədə 10 min kilometr deyil, 7 min kilometr təşkil edir. Təkcə bu faktlar Trans-Xəzər dəhlizinin qlobal ticarətdə nə qədər sərfəli və strateji əhəmiyyətə malik olduğunu sübut etmək üçün yetərlidir.

2020-ci ildə Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməklə Cənubi Qafqazda tamamilə yeni geosiyasi reallıq formalaşdırıb. Regionda sülhün və təhlükəsizliyin əsas dayağı kimi ölkəmizin nüfuzunun artması bir reallıqdır. Bu gün Azərbaycan Avrasiyanın etibarlı tərəfdaşı, enerji təhlükəsizliyinin təminatçısı kimi çıxış edir. Məhz bu sabitlik və etibarlılıq Mərkəzi Asiya ölkələrinin Azərbaycana marağını daha da gücləndirir. Prezident İlham Əliyevin sözləri ilə desək: "Mərkəzi Asiyadakı qardaşlarımız bilirlər ki, Azərbaycanın bütün nəqliyyat-logistika infrastrukturu onlar üçün açıqdır".

Mərkəzi Asiya beş ölkədən ibarət coğrafi məkan kimi tanınsa da, formalaşan yeni əməkdaşlıq modeli bu ənənəvi təsəvvürü dəyişir. Azərbaycan da Mərkəzi Asiyanın tərkib hissəsidir, əməkdaşlıq və məşvərətçi formatın tamhüquqlu üzvü kimi iştirakçısı statusu qazanıb. Artıq Bakı yalnız dost və qardaş dövlətlərlə əməkdaşlığını dərinləşdirmir, həm də Mərkəzi Asiyanın institusional formatlarının, dövlət və hökumət başçıları səviyyəsində görüşlərin, dövlət və ictimai təşkilatların forumlarının - daimi üzvü statusuna yüksəlib. Münasibətlərin bu formatda inkişafı Azərbaycanın milli maraqlarına, regional baxışına və genişlənən xarici siyasət xəttinə tam uyğun addımdır. Bundan sonra ölkəmiz Mərkəzi Asiya çərçivəsində keçirilən tədbirlərdə iştirak etməklə artıq həm qərarvermə prosesinin, həm də əməkdaşlıq gündəminin formalaşmasında fəal rol oynayacaq. Bu isə təkcə iqtisadi, nəqliyyat, enerji və humanitar sahələrdə deyil, həm də siyasi koordinasiyanın dərinləşməsində yeni imkanlar deməkdir.

Bu gün Azərbaycan-Mərkəzi Asiya münasibətləri təkcə siyasi yaxınlaşma deyil, həm də tarixin çağırışlarına verilən cavabdır. Bir məkandan digərinə uzanan qədim İpək yolu bu gün yenidən canlanır, xalqlar arasında bağlar iqtisadi layihələrlə güclənir, diplomatik əməkdaşlıq isə strateji tərəfdaşlığa çevrilir. Mərkəzi Asiya ilə Azərbaycan arasında yaranan vahid format regionda dayanıqlı sabitliyin, güclü iqtisadi inteqrasiyanın və daha böyük siyasi koordinasiyanın əsasını qoyur. Bu yeni model həm regionun geostrateji çəkisini artırır, həm də gələcək nəsillər üçün daha güclü və sarsılmaz birlik vəd edir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Dostluğa və müttəfiqliyə əsaslanan münasibətlər genişlənir

"Bizi ortaq köklər, mənəvi dəyərlər, dil, etnik yaxınlıq, zəngin tarixi və mədəni irs birləşdirir. Əsrlər boyu qardaş xalqlarımız bir-birinə dərin rəğbət və hörmət bəsləyiblər. Sevindirici haldır ki, dövlətlərarası münasibətlərimiz bu möhkəm təməl üzərində uğurla inkişaf edir.

Bu gün Azərbaycan ilə Özbəkistan arasında münasibətlər ən yüksək - müttəfiqlik səviyyəsindədir".

Noyabrın 13-də Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) verdiyi müsahibəsi zamanı Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan-Özbəkistan əlaqələri bu gün hərtərəfli şəkildə uğurla inkişaf edir.

Azərbaycan xarici siyasətində Mərkəzi Asiya ölkələri ilə çoxşaxəli əməkdaşlığa böyük əhəmiyyət verir. Xüsusilə, İkinci Qarabağ müharibəsindən sonra bölgədə yaranan yeni reallıqlar, kommunikasiyaların qurulması istiqamətində formalaşan mövcud vəziyyət sözügedən ölkələrlə münasibətlərin daha dinamik inkişaf etməsinə gətirib çıxarıb. Bu mənada Azərbaycan-Özbəkistan əlaqələri xüsusi diqqət çəkir. Tarixi kökləri, dili, dini, mədəniyyəti ilə bir-birinə sıx bağlı olan bu iki ölkə siyasi, iqtisadi, ticari, ümumiyyətlə, çoxşaxəli əməkdaşlıqlarında xalqlarımızın, ölkələrimizin rifahını, tərəqqisini əldə əsas tuturlar. Prezident İlham Əliyev və Özbəkistan rəhbəri Şavkat Mirziyoyev arasındakı səmimi dostluq münasibətləri ölkələrimizin əməkdaşlıq əlaqələrinin genişləndirilməsində mühüm təkan rolunu oynayır.

Yuxarıda sözügedən müsahibəsində dövlətimizin rəhbəri də məhz bu məqama bir daha diqqət çəkib: "Münasibətlərimizin inkişafına təsir edən digər, əhəmiyyəti heç də az olmayan amil Özbəkistan Prezidenti Şavkat Miromonoviç Mirziyoyev ilə aramızda yaranan şəxsi etimad və dostluq münasibətləridir. Prezidentin dövlətlərarası münasibətlərimizin inkişafına şəxsi töhfəsini, onun çoxşaxəli əməkdaşlığımızın ardıcıl olaraq gücləndirilməsinə daim diqqət yetirməsini xüsusi vurğulamaq istərdim".

## Qarabağın quruculuğuna dəstək təşəbbüsünü irəli sürən ilk ölkə

İki ölkə ali liderlərinin Özbəkistan və Azərbaycana qarşılıqlı səfərləri də dövlətlərimiz arasındakı əlaqələrin intensiv inkişafına xidmət edir.

Gerçəkləşdirilən tarixi səfərlər zamanı xeyli mühüm sənəd, həmçinin strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında bəyannamə, müttəfiqlik münasibətləri haqqında müqavilə, "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında müqavilənin həyata keçirilməsi üzrə 2025-2029-cu illər üçün "Yol Xəritəsi" və digər sənədlər imzalanıb.

Özbəkistan hər zaman Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini birmənalı şəkildə dəstəkləyib. Özbəkistan rəhbəri Şavkat Mirziyoyevin işğaldan azad edilən torpaqlarımıza dəfələrlə səfər etməsi də qardaş ölkənin Azərbaycana olan yüksək etimadından xəbər verir. Özbəkistan dövlətimizin Qarabağ və Şərqi Zəngəzurda apardığı genişmiqyaslı tikinti və quruculuq işlərinə öz töhfəsini verməklə qardaşlıq həmrəyliyini bir daha nümayiş etdirib.

2023-cü ilin avqustunda Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılış mərasimində iştirak ediblər.

Bu nümunənin özü də "Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır", - deyən Şavkat Mirziyoyevin sözlərinin əyani təsdiqidir.

UzA-ya müsahibəsində Prezident İlham Əliyev də elə bu məqama toxunub: "...Qardaş Özbəkistana Qarabağın bərpasına verdiyi töhfəyə, xüsusən də azad edilmiş Füzulidə böyük özbək alimi Mirzə Uluqbəyin adını daşıyan və hazırda təxminən 600 şagirdin təhsil aldığı məktəbin tikintisinə görə minnətdarlığımı bildirirəm. Özbəkistan Qarabağ bölgəsinin yenidən qurulmasına yardım göstərmək təşəbbüsünü irəli sürən ilk ölkə, Prezident Mirziyoyev isə dünyada ilk lider olub. Biz bunu həmişə xatırlayacaq, ölkələrimiz və xalqlarımız arasında həmrəylik, dostluq və qardaşlıq jesti kimi qəbul edəcəyik".

## Strateji qarşılıqlı əlaqələr inkişaf edir

Prezident İlham Əliyev Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirak etmək üçün noyabrın 15-16-da Özbəkistanda səfərdə olub.

Daşkənddə Prezident İlham Əliyevin Özbəkistan rəhbəri Şavkat Mirziyoyev ilə təkbətək görüşü zamanı ölkələrimiz arasındakı əlaqələrin inkişafından söz açılıb. Azərbaycanla Özbəkistan arasında müttəfiqliyə və strateji tərəfdaşlığa əsaslanan münasibətlərin uğurla inkişaf etdiyi bildirilib.

Prezident İlham Əliyevin Özbəkistana, Prezident Şavkat Mirziyoyevin isə ölkəmizə mütəmadi səfərlərinin əlaqələrimizin inkişafında rolu vurğulanıb. Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında əməkdaşlığın son dövrlərdə daha da genişləndiyi məmnunluqla qeyd edilərək, bu xüsusda dövlətimizin başçısının Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirakının önəminə toxunulub.

Məşvərət görüşündə Azərbaycanın tamhüquqlu iştirakçı qismində Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşü formatına qoşulmasına dair qərar qəbul edilib. Görüşdəki çıxışında bununla bağlı Özbəkistan Prezidenti Şavkat Mirziyoyev bildirib ki, biz Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında güclü bir körpü quracağıq və vahid əməkdaşlıq məkanının formalaşmasına yol açacağıq: "Bu, sözsüz ki, hər iki regionun strateji qarşılıqlı əlaqəsini və dayanıqlılığını gücləndirəcək. Bu vacib qərarı qəbul etdiklərinə görə bütün həmkarlarıma səmimi-qəlbdən təşəkkürümü bildirmək və Məşvərət görüşlərinə tamhüquqlu iştirakçı qismində qoşulması münasibətilə İlham Heydər oğlunu təbrik etmək istəyirəm".

Göründüyü kimi, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə hərtərəfli əlaqələri gündən-günə inkişaf edir və bu dinamika Özbəkistanla dostluğa, qardaşlığa əsaslanan münasibətlərin fonunda daha da irəli çıxıraq gələcək üçün böyük perspektivlər vəd edir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan və Mərkəzi Asiya: Vahid strateji məkanın dünyaya gəlməsi

Ötən bazar günü günəşli Daşkənddə tarixi hadisə baş verdi - Mərkəzi Asiya dövlət başçılarının 7-ci Məşvərət Görüşü keçirildi. Bu toplantı təkcə növbəti diplomatik forum kimi deyil, həm də Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında əlaqələrin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması ilə yadda qaldı. Azərbaycan Prezidenti İlham Əliyev bu formata ardıcıl olaraq üçüncü dəfə qatıldı. Lakin bu dəfə onun iştirakı qonaq statusunda deyildir. Azərbaycan bu qurumun tamhüquqlu üzvünə çevrilərək ümumtürk inteqrasiyasının yeni bir erasını başladıb.

Bir müddət öncəyə qədər əməkdaşlıq modeli "5+1" formatı ilə xarakterizə olunurdu - yəni beş Mərkəzi Asiya dövləti və ayrıca tərəfdaş kimi Azərbaycan. Lakin bu yanaşma artıq tarixə çevrilib - siyasətin reallığı yeni bir baxışın formalaşmasına səbəb olub: altı dövlət vahid geosiyasi layihə çərçivəsində birləşir. Burada sərhədlər formal anlayışa çevrilir, ortaq taleyə doğru birlikdə addımlanır. Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin təsirli ifadəsi bu prosesin mahiyyətini dəqiqliklə izah edir: bugünkü münasibətlər artıq "kimyəvi birləşmə" nümunəsi olaraq "6" formulasına çevrilib. Bu, birlik, qardaşlıq və ortaq tarixi missiyanın simvoludur.

## Əsrlər boyu gözlənilən yaxınlaşma

Dünən hələ strateji plan kimi görünən münasibətlər bu gün gerçəkliyə çevrilir. Azərbaycan artıq "körpü" rolundan çıxaraq Xəzərin hər iki sahilini əhatə edən geniş coğrafi məkanın ayrılmaz hissəsinə çevrilir. Bu inteqrasiya uzun müddətdir ekspertlər və beynəlxalq müşahidəçilər tərəfindən müzakirə olunurdu, lakin məhz Daşkənd görüşü ilə rəsmi təsdiqini tapdı. Azərbaycanın Mərkəzi Asiya dövlət başçılarının Məşvərət görüşünə daimi üzv kimi daxil olması bütün iştirakçı ölkələrin maraqlarına cavab verən, uzunmüddətli əməkdaşlığa əsaslanan məntiqli addım oldu. Bu inteqrasiya birdən yaranmayıb - buna sistemli və məqsədyönlü şəkildə addım atılıb. Prezident İlham Əliyev qeyd etdi ki, son üç ildə Mərkəzi Asiya ölkələrinə 14 dəfə səfər edib, həmin ölkələrin liderləri isə Azərbaycana 23 dəfə təşrif buyurublar. Bu səfərlər sırf diplomatik protokol deyil, sözlərlə yox, əməli addımlarla təsdiqlənən qardaşlığın göstəricisidir.

Elə yalnız Füzulidə Mirzə Uluqbəy adına məktəbin və Qazaxıstanın dəstəyi ilə yaradılmış Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin fəaliyyətə başlamasını xatırlamaq kifayətdir. Ağdamda Manas adına məktəb artıq şagirdlərini qəbul edir. Bundan əlavə, bu ilin oktyabrında Türkmənistanın hədiyyəsi olan bir məscidin təməli qoyuldu - o, qardaş dəstəyinin mənəvi simvoluna çevriləcək. Bütün bu yeniliklər xalqlarımızın qarşılıqlı hörmətinin, həmrəyliyinin və vahid gələcəyə inamının abidələridir.

## Yeni qitəvi güc mərkəzi

Bu gün Azərbaycan və Mərkəzi Asiya sadəcə coğrafi qonşular deyil, Avrasiyanın xəritəsində yeni güc mərkəzi yaradan strateji tərəfdaşlardır. Onları birləşdirən dərin tarixi köklər, etnokulturoloji əlaqələr və ümumi iqtisadi maraqlardır. Xəzərin sahillərindən Tanrı dağlarına qədər uzanan birlik, Avrasiyanın "ürəyini" formalaşdıraraq qlobal maraqları özündə cəmləyir. Bu transformasiyanın əsas elementi - Çin ilə Avropanı Azərbaycandan keçməklə birləşdirən "Şərq-Qərb" nəqliyyat arteriyası olan Orta dəhlizdir. Geosiyasi dəyişikliklər fonunda bu layihə artıq xüsusi əhəmiyyət daşıyır. Azərbaycan yalnız tranzit ölkə deyil, həm də bu dəhlizin təhlükəsizliyini və səmərəliliyini təmin edən əsas iştirakçıya çevrilir.

Son üç ildə Orta dəhliz üzrə Azərbaycanın üzərindən daşınan yük həcmi 90% artıb. Ələt Beynəlxalq Dəniz Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, doqquz beynəlxalq hava limanı və güclü yük aviasiyası Azərbaycanın qlobal logistika xəritəsində əsas qovşağa çevrilməsinə imkan verir.

Tezliklə Zəngəzur dəhlizi Azərbaycanın cənub bölgələrini də bu şəbəkəyə daxil etməklə tranzit imkanlarını ikiqat artıracaq. Bu layihə təkcə yol deyil iqtisadi və siyasi birliyin açarıdır. Bu, malların, ideyaların və mədəniyyətlərin sərbəst hərəkəti üçün yeni bir məkandır. Dəhliz XXI əsrin ən mühüm nəqliyyat layihələrindən biri kimi tarixə yazılmağa hazırdır.

## Rəqəmsal və enerji inteqrasiyası - zamanın tələbi

Amma yük daşımaları yalnız işin başlanğıcıdır. Daha böyük proseslər rəqəmsal və enerji sahələrində baş verir. Xəzərin dibi ilə çəkiləcək fiber-optik kabel - "Rəqəmsal İpək yolu" Asiya ilə Avropanı məlumat axınları ilə birləşdirəcək. Paralel olaraq, region ölkələrinin elektrik şəbəkələrini birləşdirəcək sualtı enerji xətti də layihələndirilir - bu, "yaşıl enerji"nin ixracı üçün qlobal platforma yaradacaq.

Bu təşəbbüslər Azərbaycan və Mərkəzi Asiya tarixində yeni səhifə açır. Region artıq yalnız iqtisadi cinahda deyil, həm də rəqəmsal və enerji sahələrində qabaqcıl mövqeyə çıxır. Neft, qaz, bərpaolunan enerji və texnoloji potensialın birləşməsi gələcək üçün möhkəm təməl yaradır.

## Strateji gələcək - dünyaya nümunə

Azərbaycan və Mərkəzi Asiya təkcə regional blok deyil. Bu, yeni siyasi düşüncə modelidir, dünyadakı parçalanmalar və ziddiyyətlər fonunda suveren və müstəqil yanaşmanın parlaq nümunəsidir. Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Tacikistan və Azərbaycan - bu altı dövlət bərabərhüquqlu əməkdaşlıq yolu tutaraq kənar təsirlərə qarşı müstəqil davranırlar.

Geosiyasi çətinliklərə baxmayaraq, region öz gündəliyini müəyyənləşdirdi: inkişaf, inteqrasiya və sülh. Bu birliyə güc verən də elə budur. Bu gün Azərbaycan və Mərkəzi Asiya vahid geosiyasi orqanizm kimi irəli çıxır - azad, müstəqil və iddialı. Bu ittifaq qarşılıqlı fayda və ortaq tarixi yaddaşa söykənərək qurulur. Uğurlar ədalətli, perspektivlər parlaqdır.

Qarşıda yeni üfüqlər, böyük layihələr və gələcək uğurlar dayanır. Lakin bu inteqrasiyanın başlıca gücü xalqlarımızın iradəsində, qardaşlığında və birliyindədir. Biz böyük dəyişikliklərin astanasındayıq.

Bu şanlı yolda xalqlarımıza uğurlar arzulayırıq!

***AZƏRTAC***



**"Böyük qayıdış"**
**proqramı sürətlə icra olunur**





# Qarabağda həyat canlanır

## Böyük qayıdış azad edilmiş torpaqlarda müasir şəhərsalma, sosial rifah və milli birliyin yeni mərhələsini formalaşdırır

Azərbaycan özünün qürurverici dövrünü yaşayır. Prezident İlham Əliyevin "Biz - bu torpaqların sahibləri Qarabağa, Şərqi Zəngəzura qayıtmışıq və bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq" sözləri artıq təsdiqini tapıb. Böyük qayıdış proqramının icrası ilə Qarabağ və Şərqi Zəngəzurda həyat yenidən canlanır, yeni şəhərlər, yeni kəndlər, müasir infrastruktur və bərpa-olunan enerji layihələri ölkəmizin gücünü və iradəsini bir daha nümayiş etdirir. Beş il əvvəl 30 illik həsrətə son qoyan tarixi qələbə yalnız torpaqlarımızın azad edilməsi ilə məhdudlaşmayıb, eyni zamanda bu ərazilərdə yeni inkişaf mərhələsinin başlanğıcı olub.

İşğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq işləri dövlətimizin strateji baxışının, planlı fəaliyyətinin və qətiyyətli siyasi iradəsinin bariz təzahürüdür. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu torpaqların hər qarışında Azərbaycan bayrağı əbədi dalğalanacaq və bu gün bu əminliyin əsası addım-addım möhkəmləndirilir. Artıq 60 mindən çox insan azad edilmiş ərazilərdə yaşayır, çalışır və təhsil alır. Onların hər biri təkcə evinə deyil, həm də öz həyatına, gələcəyinə qovuşur.

Qısa zaman kəsiyində ərsəyə gəlmiş layihələr Qarabağ və Şərqi Zəngəzurun dirçəliş dastanına çevrilib. Müasir məktəblər, xəstəxanalar, sənaye zonaları, elektrik stansiyaları, su anbarları, yeni yollar və yaşayış məhəllələri bu bölgənin tam şəkildə həyat ritminə qayıtdığını göstərir. Bu gün artıq 21 mindən çox keçmiş məcburi köçkün doğma torpaqlarında daimi məskunlaşıb. Ümumilikdə 6 şəhər, 2 qəsəbə və 22 kənd köç karvanlarını qarşılayıb və bu proses ardıcıl şəkildə davam edir. Böyük qayıdışın birinci mərhələsi başa çatana qədər Qarabağ və Şərqi Zəngəzurda 140 min nəfərin - 34 min 500 ailənin doğma yurdlarında daimi məskunlaşması təmin ediləcək.

Bu gün işğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma işləri təkcə fiziki məkana həyat vermir, həm də insanlara mənəvi güc qazandırır. Uzun illər boyu həsrətlə yaşamağa məhkum edilmiş insanların qayıdışı burada icra olunan layihələrin ən böyük nəticəsi kimi dəyərləndirilir. Hər köç karvanında gözlərində həyəcan işığı olan minlərlə insan bu torpaqlara yalnız evlərinə deyil, həm də yaddaşlarına, tarixlərinə, köklərinə qayıdır. Uşaqlar ilk dəfə ata-baba yurdlarını gözləri ilə görür, yeniyetmələr valideynlərinin illərlə danışdığı, xəyal etdiyi o torpağın ətrini duyur, ağsaqqallar və ağbirçəklər isə ömür boyu gözlədikləri anı yaşayırlar. Bu mənzərə təkcə bərpa olunmuş infrastruktur deyil, həm də yenidən qayıdan həyat enerjisinin, ruhun ifadəsidir.

Qayıdışla yanaşı, bölgədə sosial həyat da dinamik şəkildə formalaşır. Məktəblərin açılması, səhiyyə ocaqlarının istifadəyə verilməsi, mədəniyyət müəssisələrinin fəaliyyətə başlaması bu ərazilərdə yeni cəmiyyətin formalaşmasının əsasını qoyur. Ən müasir standartlarla qurulan məktəblərdə dərs deyən müəllimlər, yeni klinikalarda çalışan həkimlər, mədəniyyət mərkəzlərinin təşkil etdiyi tədbirlər Qarabağın sosial mənzərəsinə yeni bir rəng qatır. Bu bölgəyə yerləşən gənc mütəxəssislər üçün yaradılan şərait həm onların işinə, həm də həyatına müsbət təsir edir. Beləcə, Qarabağ və Şərqi Zəngəzur dövlət və cəmiyyət birliyinin, həm də yenidən qurulmuş həyat fəlsəfəsinin simvolu kimi hər gün daha da möhkəmlənir.

Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərin inkişafını ölkənin iqtisadi sisteminə inteqrasiya kimi dəyərləndirir və bu məqsədlə genişmiqyaslı infrastruktur layihələri gerçəkləşdirir. Yolların, tunellərin, körpülərin, elektrik və su təchizatı şəbəkələrinin qurulması, "ağıllı şəhər" və "ağıllı kənd" modellərinin tətbiqi Qarabağı və Şərqi Zəngəzuru bölgənin ən müasir məkanlarından birinə çevirir. Bu torpaqlar yalnız bərpa olunmur, həm də dayanıqlı inkişafın nümunəsi kimi formalaşdırılır. "Yaşıl enerji zonası" konsepsiyası isə Qarabağın və Şərqi Zəngəzurun ekologiya və iqtisadiyyat baxımından strateji əhəmiyyətə malik yeni məkana çevriləcəyini göstərir.

Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə etdiyi çoxsaylı səfərlər bərpa prosesinin şəffaf, operativ və yüksək keyfiyyətlə aparılmasının təminatıdır. Sakinlərə evlərinin açarlarının təqdim olunması, yeni tikililərin açılışında iştirak, qayıdan ailələrlə səmimi görüşlər artıq ənənə halını alıb. Bu səfərlərin hər biri həm dövlətin öz vətəndaşına göstərdiyi diqqətin, həm də Qarabağa qayıdışın dövlət siyasətinin prioriteti olduğunun təsdiqidir.

Uzun illər məcburi köçkün həyatı yaşayan on minlərlə insan üçün yeni bir mərhələ başlayıb. Onların doğma yurdlarına qayıtması, ocaqlarının yenidən tüstülənməsi təkcə sosial hadisə deyil, həm də milli ruhun, tarixi ədalətin bərpasının ən ali göstəricisidir. Azərbaycan xalqı bu qələbəni asanlıqla əldə etməyib. Dövlətimizin başçısının qətiyyətli liderliyi, xalqın həmrəyliyi, ordumuzun gücü və qəhrəmanlığı sayəsində tarixi ədalət bərpa olunub. Şuşada, Füzulidə, Cəbrayılda, Kəlbəcərdə, Zəngilanda ucaldılan üçrəngli bayrağımız Azərbaycan dövlətinin əzmini, gücünü və iradəsini bütün dünyaya nümayiş etdirib.

Bu il Azərbaycan xalqı Vətən müharibəsində Qələbənin beşinci ildönümünü böyük təntənə ilə qeyd etdi. Bakının Azadlıq meydanında keçirilən möhtəşəm hərbi parad Zəfərimizin əzəmətini bir daha bütün dünyaya göstərdi. "Qarabağ Azərbaycandır!" şüarı meydanda hər zamankından daha gur səsləndi. Bu parad həm də tarixi Qələbəmizin diplomatik, siyasi və iqtisadi müstəvidə möhkəmləndirilməsi istiqamətində atılan addımların rəmzi idi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-ci ildə Qarabağın azad edilmiş torpaqlarında bayrağımızı ucaldaraq söylədiyi "Biz qayıtmışıq" sözləri bu gün daha dərindən mənalanır. Qarabağa, Şərqi Zəngəzura həyat qayıdır. Dağıdılmış şəhər və kəndlər ən müasir texnologiyalar əsasında yenidən qurulur. Yol çəkilən, ev tikilən, ağac əkilən hər qarış torpaq gələcək nəsillərə miras qalacaq dirçəlişin simvoludur. Bu gün Azərbaycanın gücü, xalqımızın birliyi və dövlətimizin qətiyyəti nəticəsində Qarabağ və Şərqi Zəngəzur yalnız keçmişin həsrətini deyil, gələcəyin ümidini və quruculuq ruhunu daşıyan bölgələrə çevrilib.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*









# Cəbrayıl və Ağdamın kəndlərinə köçmüş sakinlərə mənzillərin açarları təqdim olunub



Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış davam etdirilir. Dünən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, Cəbrayıl rayonu Horovlu kəndinə növbəti köç prosesi gerçəkləşib, səhər saatlarında yola salınan ailələr doğma yurdlarına qovuşub.

AZƏRTAC xəbər verir ki, Cəbrayıl rayonunun Horovlu kəndi bu gün 37 ailə olmaqla 160 nəfərə qucaq açıb. Ailələr yenidən qurulan kəndə sevinc göz yaşları ilə qədəm qoyub və öz doğma yurduna qovuşaraq yaradılan gözəlliyi seyr ediblər.

Növbəti köç karvanı ilə Horovlu kəndinə çatan ailələrə evlərinin açarları təqdim olunub.

Cəbrayıl rayonu Horovlu kəndinə köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub. Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər. Ailələr sevinclə açarları qəbul edərək öz evlərində məskunlaşıblar.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Qeyd edək ki, kəndin ümumi sahəsi 248 hektardır. Birinci mərhələdə 94 hektar ərazidə 334 fərdi ev inşa edilib. Evlər 2, 3, 4, 5 otaqlıdır və müasir kommunikasiya şəbəkəsi -su, işıq, qaz, Günəş panelləri, yüksəksürətli internetlə təmin olunub. Evlərin üzərində Qarabağ xalçalarının ornamentləri həkk edilib. Kənddaxili yollara asfalt döşənib. 624 şagird yerlik məktəb binasının, 220 yerlik körpələr evi-uşaq bağçasının, ikimərtəbəli inzibati binanın, bazar kompleksinin, çoxfunksiyalı iaşə obyektlərinin, tibb məntəqəsinin və idman-sağlamlıq mərkəzinin tikintisi həyata keçirilib. Kənddə tarixən istifadə olunmuş, işğal dövründə dağıdılmış "Əsgər", "Şığı", "Orta", "Gülqasım" və "Xəlifə" kəhrizləri bərpa edilib. Horovlu kəndində 4,4 hektar ərazidə park kompleksi də inşa olunub. Eyni zamanda Bayraq meydanından bazar kompleksinə qədər gəzinti yolları salınıb. 3,1 hektar yaşıllıq ərazisində zeytun, çinar və Eldar şamı ağacları əkilib.

❖ ❖ ❖

Noyabrın 18-də yola salınan növbəti köç karvanı Ağdam rayonunun Xıdırlı kəndinə çatıb. Bu mərhələdə Xıdırlı kəndində 57 nəfərdən ibarət 15 ailəyə mənzillərin açarları təqdim olunub.




Mərasimdə Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

# Cəbrayıllılar sevinirlər

"Mən uzun illərdir didərgin düşdüyüm torpağıma geri qayıdıram. Doğma yurda dönüş hissi insana tamam başqa bir duyğu verir. Mən 32 yaşımda yurdumdan çıxarılmışdım. İndi isə 65 yaşımda geri qayıdıram. Elə bil ki, yenidən dünyaya gəlmişəm. Bu günə şükür edirəm".



Bu sözləri AZƏRTAC-a müsahibəsində Cəbrayıl rayonunun Horovlu kəndinə qayıdan sakin Rəhman Kəlbəliyev deyib. Doğma torpağa qayıdışı ən böyük səadət adlandıran R.Kəlbəliyev bu prosesdə əməyi olan hər kəsə təşəkkür edib.

"Ən böyük minnətdarlığımız isə şəhidlərimizədir. Allah bütün şəhidlərimizə rəhmət etsin. Onların qanı bahasına biz bu torpaqlara qayıdırıq. Qazilərimizə Allah cansağlığı versin. Prezidentimizə də uzun ömür və güc-qüvvət arzulayıram - bütün bu qayıdış onun rəhbərliyi və ordumuzun şücaəti ilə mümkün olub", - deyə vurğulayıb.

❖ ❖ ❖

"Mən Cəbrayılı heç vaxt görməmişəm. Uşaq yaşlarımdan bəri ailəmlə Bakıxanovda məcburi köçkünlük həyatı yaşamışıq. Atamdan, anamdan, böyüklərimizdən Cəbrayıla, kəndimizə dair hekayələr eşitmişəm, onların xatirələri ilə böyümüşəm. Mənim üçün o yerlər uzun illər xəyal kimi olub - heç getmədiyim, amma hər zaman görmək istədiyim bir yurd".



Bu sözləri AZƏRTAC-a müsahibəsində Cəbrayıl rayonunun Horovlu kəndinə köç edən keçmiş məcburi köçkün Pərviz Balacayev deyib. O, hazırda həmin xəyalının gerçəyə çevrildiyini deyib.

"Kəndimizə qayıtmaq, orada yaşamaq imkanı yaranıb. Buna görə çox sevinirəm. Bu, bizim ailənin illərlə ürəyində daşıdığı həsrətin bitməsi, mənim isə heç vaxt görmədiyim, amma hər zaman mənə doğma olan torpağa addım atmağımdır. İndi Horovlunu öz gözlərimlə görmək, o torpaqda yaşamaq və oradan yeni xatirələr yaratmaq istəyirəm", - deyə Horovlu sakini əlavə edib.

# Xankəndidə görülən işlər açıqlanıb

Böyük qayıdış dövlət proqramı çərçivəsində Xankəndi şəhərində genişmiqyaslı bərpa-quruculuq işləri gedir. İnfrastruktur - yollar, su, elektrik, qaz və rabitə xətləri yenilənib, bütün yaşayış və qeyri-yaşayış fonduna texniki baxış keçirilib. İstifadəyə yararsız tikililər sökülüb, şəhərin yeni baş planına uyğun müasir layihələr icra olunmağa başlayıb.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, bu barədə xidmətin icraçı direktoru Telman Kərimli məlumat verib. Onun sözlərinə görə, Xankəndidəki əsas binaların əksəriyyəti - Zəfər Muzeyi, Prezidentin Xüsusi Nümayəndəliyinin binası və "Qarabağ" hoteli vaxtilə dövlət büdcəsi hesabına və azərbaycanlı memarların layihələri əsasında inşa olunub. Eləcə də meydanda yerləşən Mədəniyyət Mərkəzinin binası "Azərmemarlayihə" Dövlət Baş Layihə İnstitutunun memar və konstruktorları tərəfindən hazırlanmış müasir layihələr əsasında bərpa edilərək yenidən şəhər həyatına qaytarılır. Biznes Mərkəzi tam təmir olunaraq müasir ofis və xidmət məkanına çevrilib. Xankəndi şəhər stadionu yenilənərək idman tədbirləri üçün tam yararlı vəziyyətə gətirilib. Şəhərin mədəni yaddaşını yaşadan Dövlət Dram Teatrında da bərpa ardıcıl şəkildə aparılır. T.Kərimli onu da bildirib ki, işğal dövrünün şəhərsalma prinsiplərinə uyğun olmayan tikililəri sökülüb və onların yerində müasir ictimai məkanlar, iaşə obyektləri və funksional şəhər strukturlarının qurulması davam edir. Bu layihələr sırasında Zəfər parkı xüsusi əhəmiyyət daşıyır.

Bu gün Xankəndi ilə yanaşı, Ağdərənin, Xocalının kəndlərində də bərpa və infrastruktur layihələri icra olunur. Kəndlərdə yollar salınır, mühəndis-kommunikasiya xətləri yenilənir, fərdi yaşayış evləri sakinlərin qayıdışı üçün tam şəkildə bərpa edilir.

T. Kərimlinin sözlərinə görə, bu böyük quruculuq prosesinin əsas dayaqlarından biri peşəkar kadr potensialıdır: "Qürurla deyə bilərik ki, Xankəndidə, Ağdərədə və Xocalıda həyata keçirilən layihələrin əhəmiyyətli hissəsində Azərbaycan Memarlıq və İnşaat Universitetinin iki yüzdən çox məzunu - memarlar, konstruktorlar, inşaat mühəndisləri və layihə rəhbərləri iştirak edir. Onların bilik və peşəkarlığı Qarabağın yenidən qurulmasına real töhfə verir. Bu gün Xankəndi tarixi irsi qorumaqla, müasir şəhərsalma standartlarına uyğun şəkildə yenidən formalaşır. Bütün görülən işlər dövlətçiliyin gücünü və memarlıq məktəbimizin peşəkarlığını əks etdirir", - deyə o bildirib.



# Etibarlı maliyyə təminatı

## Gələn ilin dövlət büdcəsi inkişafın davamlı olmasına əlverişli zəmin yaradacaq

**Bu** gün Milli Məclisdə "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsinin (birinci oxunuş) plenar müzakirəsi başlayır. Xatırladaq ki, noyabrın 4-dən başlayaraq parlamentin komitələrinin birgə iclaslarında gələn ilin dövlət büdcəsi layihəsi və büdcə zərfinə daxil olan digər məsələlər birinci oxunuşda müzakirə olunub.



### Gəlir və xərclər artır

Dövlət büdcəsi əsas maliyyə alətidir. Ona görə dövlət büdcəsinin tərtibi və icrası həmişə prioritet vəzifələrdən biri kimi nəzərdən keçirilir. Azərbaycanın gələn ilin dövlət büdcəsinin vaxtında tərtib olunması və müzakirə edilməsi də göstərir ki, bu mühüm vəzifə vaxtında yerinə yetirilir.

Qlobal iqtisadiyyatda qeyri-müəyyənliyin davam etdiyi və risklərin artdığı bir şəraitdə Azərbaycanda makroiqtisadi sabitliyin hökm sürməsi respublikamızın mühüm iqtisadi uğurudur. Bu gün ölkəmizin xarici ticarət balansında davamlı müsbət saldo müşahidə olunur, strateji valyuta ehtiyatlarımız artmaqda davam edir, xüsusən qeyri-neft-qaz sektoru üzrə fiskal daxilolmalar hesabına dövlət büdcəsinin maliyyə dayanıqlığı daha da güclənir, fiskal-monetar nəticələr üzrə pozitiv dinamika təmin olunur.

Respublikamızda ümumi daxili məhsul istehsalının 2026-cı ildə real ifadədə 2,9 faiz artaraq 134,1 milyard manat, o cümlədən qeyri-neft-qaz ÜDM-in 5 faiz artaraq 101,7 milyard manat təşkil edəcəyi proqnozlaşdırılır. Ölkəmizin strateji valyuta ehtiyatları isə hazırda 81,5 milyard ABŞ dolları həcmindədir. Bu kimi amillər növbəti illər üçün iqtisadi proqnozları daha optimist ssenarilər üzərində irəli sürməyə və dövlət büdcəsini artımla tərtib etməyə imkan verir.

2026-cı ildə icmal büdcənin gəlirləri 45 milyard manat, dövlət büdcəsinin gəlirləri isə 38,6 milyard manat təşkil edəcək. O cümlədən qeyri-neft-qaz sektoru üzrə gəlirlər 22,2 milyard manat, neft-qaz sektoru üzrə gəlirlər 16,4 milyard manat, Dövlət Vergi Xidmətindən daxilolmalar 16,9 milyard manat, Dövlət Gömrük Komitəsi vasitəsilə daxilolmalar 6,9 milyard manat, büdcə təşkilatlarının ödənişli xidmətləri üzrə gəlirlər 1 milyard 21 milyon manat, sair gəlirlər 531 milyon manat, Dövlət Neft Şirkətinin dividendlərindən isə 450 milyon manat gəlir proqnozlaşdırılır. Xam neftin 1 barelinin orta illik ixrac qiyməti 65 ABŞ dolları müəyyən edilib. Növbəti ildə Neft Fondundan büdcəyə transfert 1 milyard ABŞ dolları həcmində azaldılıb. Gələn il üçün icmal büdcənin xərcləri 48,8 milyard manat, dövlət büdcəsinin xərcləri isə 41,7 milyard manat olaraq proqnozlaşdırılır. Dövlət büdcəsinin xərcləri cari illə müqayisədə 296 milyon manat, ötən illə müqayisədə isə 4 milyard manat və ya 10,6 faiz çoxdur. Növbəti il üçün dövlət büdcəsi xərclərinin 25,2 milyard manatı və ya 60,3 faizi cari xərclərə, 14,1 milyard manatı və ya 33,8 faizi əsaslı xərclərə, 2,5 milyard manatı və ya 5,9 faizi dövlət borcuna xidmətlə bağlı xərclərə yönəldiləcək. 2026-cı il üzrə cari xərclərin 88,1 faizi qeyri-neft-qaz sektoru üzrə daxilolmaların hesabına qarşılanacaq.

İcmal büdcədə isə Dövlət Neft Fondunun gəlir və xərcləri 13 milyard manat məbləğində, Naxçıvan Muxtar Respublikasının gəlir və xərcləri 483 milyon manat məbləğində müəyyən olunub.

### Prioritetlər diqqət mərkəzindədir

Azərbaycanın dövlət büdcəsi hər il ənənəvi olaraq investisiyatutumlu və sosialyönümlü tərtib olunur. Gələn ildə dövlət büdcəsinin 34 faizi investisiyayönümlü xərclərə yönəldiləcək. Bu da ilk növbədə iqtisadi inkişafın dayanıqlı olmasına xidmət edəcək.

Bununla yanaşı, digər prioritet olan sosialyönümlülük, əsasən də əhalinin sosial rifahının gücləndirilməsi istiqamətində tədbirlərin həm dövlət büdcəsi, həm də icmal büdcə çərçivəsində nəzərdə tutulması xüsusi qeyd edilməlidir. Son illər əhalinin rifah halının yaxşılaşdırılması, o cümlədən həssas qrupdan olan vətəndaşlara dövlət dəstəyinin gücləndirilməsi istiqamətində çoxsaylı islahat tədbirləri reallaşdırılıb. Büdcə zərfi ilə tanışlıq göstərir ki, sosial məsələlər növbəti ildə də prioritet olacaq. Növbəti ilin büdcəsində sosialyönlü xərclər 2025-ci illə müqayisədə 236 milyon manat çox olmaqla, 17 milyard 146 milyon manat təşkil edəcək. Ümumilikdə isə sosialyönümlü xərclərin dövlət büdcəsində xüsusi çəkisi 41,1 faiz nəzərdə tutulur. Bu da onu göstərir ki, dövlətimizin prioritetlərindən biri insan amilidir. Sosialyönlü xərclərin 89,7 faizi və yaxud 15,4 milyard manatı əməyin ödənişi və sosial təminat xərclərinin payına düşür.

Bu gün dövlətimizin qarşısında dayanan əsas prioritetlərdən biri işğaldan azad edilmiş ərazilərimizin bərpasıdır. Artıq 5 ildir ki, Azərbaycan dövləti öz daxili imkanları hesabına Qarabağ və Şərqi Zəngəzuru bərpa edir. Hər il bununla bağlı dövlət büdcəsindən lazımi səviyyədə vəsait ayrılır. Bunun nəticəsidir ki, azad edilmiş ərazilərimizin bərpası sürətlə davam edir. Növbəti ildə də dövlət büdcəsindən Qarabağ və Şərqi Zəngəzurun bərpasına tələb olunan vəsait ayrılacaq.

Əsas xərclərin bir istiqaməti də müdafiə və təhlükəsizlik məqsədlərinə yönəldiləcək. Noyabrın 8-də Bakıda keçirilən hərbi paradda ilk dəfə silahlanmaya qəbul edilən hərbi texnika və silahların nümayiş etdirilməsi göstərir ki, Azərbaycan dövləti hərbi təhlükəsizliklə bağlı məsələləri davamlı şəkildə diqqət mərkəzində saxlayır. Gələn il ölkəmizin müdafiə və milli təhlükəsizliyi ilə bağlı xərcləri 8,7 milyard manat təşkil edəcək ki, bu da ölkəmizin qarşısında dayanan müdafiə və hərbi təhlükəsizliklə bağlı vəzifələrin uğurla icra olunmasını təmin edəcək.

Bütövlükdə, 2026-cı ilin dövlət büdcəsi layihəsi respublikamızın qarşısında dayanan bütün strateji vəzifələri uğurla əks etdirir, sosial-iqtisadi inkişafın davamlı olması üçün etibarlı maliyyə təminatı yaradır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# BP-dən Azərbaycanda psixoloji reabilitasiya sahəsində təhsilə dəstək

BP şirkəti indiyədək Azərbaycanda icraçısı olduğu layihələrə öz tərəfdaşları ilə birlikdə 87 milyard dollardan çox sərmayə yönəldib.

Məlum olduğu kimi, bu şirkət ölkəmizdə 30 ildən çoxdur neft və qazın kəşfiyyatı, işlənməsi və nəqli üzrə iri layihələrin əməliyyatçısıdır və onların icrasını təhlükəsiz, səmərəli, etibarlı şəkildə həyata keçirir. BP Azərbaycanda həmçinin ən çox töhfə verə biləcəyinə inandığı sahələrə yönəlməklə dayanıqlı inkişaf təşəbbüslərinə dəstək göstərmək öhdəliyi də götürüb. Nəticədə şirkətin ölkəmizdə həyata keçirdiyi geniş sosial sərmayə fəaliyyətləri və bacarıqların inkişaf etdirilməsi istiqamətindəki səyləri insanlara əhəmiyyətli faydalar gətirib.

Sosial sərmayələr təhsil, icmaların inkişafı, sahibkarlıq, ətraf mühit, idman potensialının artırılması, habelə ölkənin zəngin mədəni irsinin tədqiqi və təbliği kimi sahələrə yönəldilib. Əməliyyatçı şirkət öz tərəfdaşları ilə birlikdə sözügedən xeyirxah təşəbbüslərini davam etdirir.

Elə bu günlərdə bir beynəlxalq elmi vəsaitin Azərbaycan dilinə tərcüməsi təqdim olunub. Bununla da BP-nin dünyanın ən qabaqcıl akademik resurslarının Azərbaycana gətirilməsi məqsədilə nəşr etdiyi kitabların ümumi sayı 30-a çatıb.

Yeni layihə şirkətin yerli universitetlərinə dünyada tanınmış qabaqcıl akademik materiallara, bilik və təcrübələrə çıxış imkanı yaratmaqla tədris və təlim prosesinin gücləndirilməsinə dəstək olmaq üçün həyata keçirdiyi geniş təhsil proqramının bir hissəsini təşkil edir. Başqa sözlə, bu, BP-nin ölkəmizdə ümumilikdə təhsilin inkişafına dəstək olmaq yönümündə uzunmüddətli öhdəliyi çərçivəsində növbəti əhəmiyyətli addımdır.

Qeyd edək ki, yeni tərcümə olunmuş kitab "PTSP hallarında koqnitiv işlənmə terapiyası: Müfəssəl vəsait" adlanır. Kitab posttravmatik stres pozuntusu (PTSP) halları zamanı koqnitiv işlənmə terapiyası (KİT) sahəsində çalışan mütəxəssislər üçün nəzərdə tutulub. Patrisiya A.Resik, Kendis M.Monson və Ketlin M.Çard tərəfindən yazılmış bu kitab psixologiya fakültələri və stres travmasının reabilitasiyası ilə məşğul olan səhiyyə təşkilatları üçün dəyərli bir resurs kimi tövsiyə olunur.

Onu da xatırladaq ki, KİT beynəlxalq səviyyədə PTSP-nin müalicəsi üçün qabaqcıl praktikaya çevrilmiş bir metod kimi tanınır və artıq Azərbaycanda da travma hallarında psixoloji yardım üzrə ixtisaslaşan peşəkar psixoloqların hazırlanmasında istifadə edilir. Adıçəkilən kitab məhz KİT metodunun müharibə veteranları da daxil olmaqla spesifik qruplara uyğunlaşdırılmasına yönəlib. Bu da onu Azərbaycanda müharibə stresi ilə bağlı travmalar məsələsinin həlli baxımından xüsusilə aktual edir.

BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli bununla bağlı deyib: "Düşünürük ki, bu kitab müharibə stresi və digər stres travmalarından əziyyət çəkən insanların reabilitasiyası üçün çox vacib mənbədir. Kitabın nəşrinə dəstək verməklə biz Azərbaycanda psixoloji reabilitasiyanın, o cümlədən emosional və psixoloji travma yaşamış insanların əqli sağlamlığının reabilitasiyasının sürətləndirilməsinə kömək etmək istəmişik. Bu nəşr stres travması yaşayan insanlarla işləyən mütəxəssislərin bilik və bacarıqlarının daha da artırılmasına, eləcə də PTSP-si olan şəxslər və onların ailə üzvlərinin bu sahədə maariflənməsinə də kömək edəcək".

Bu kitabın tərcüməsi və nəşri təşəbbüsü beynəlxalq xeyriyyə təşkilatı olan "For Azerbaijan" tərəfindən həyata keçirilən və həssas qruplar üçün dayanıqlı həllər təmin etmək məqsədi daşıyan "Azərbaycanda Psixoloji Reabilitasiya Potensialının Gücləndirilməsi" adlı geniş əhatəli layihənin bir hissəsidir. Kitabın tərcümə və nəşr xərcləri üçün BP-nin maliyyə dəstəyi 19 min 700 AZN təşkil edib. Kitab şirkətin təhsil müəssisələrinə, psixologiya fakültələrinə və stres travması reabilitasiyası ilə məşğul olan tibb müəssisələrinə hədiyyəsidir.

Sonda onu da əlavə edək ki, fəaliyyətə başladığı vaxtdan indiyədək BP özü və onun əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları adından ölkəmizdəki sosial sərmayə layihələrinə ümumilikdə 111 milyon dollardan çox vəsait xərcləyib.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Ruben Vardanyanın məhkəməsində zərərçəkmiş şəxslərin ifadələri dinlənilib

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi noyabrın 18-də davam etdirilib.





AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Daha sonra qeyd olunub ki, ötən iclasların birində təqsirləndirilən şəxs Ruben Vardanyan vəsatət verərək əvvəllər məhkəmənin hazırlıq iclasında tərcüməçi qismində iştirak etmiş İslam Ağakərimova etiraz etmişdi. Qeyd edilib ki, İslam Ağakərimov bugünkü iclasa dəvət olunub və prosesdə iştirak edir.

Təqsirləndirilən Ruben Vardanyan və onun hüquqlarını müdafiə edən vəkili Emil Babışov da etirazın təmin olunmasını məhkəmədən xahiş ediblər.

İslam Ağakərimov məhkəmənin hazırlıq iclasının qərarının onun tərəfindən tərcümə edildiyini və həmin tərcümədə yalnız bir mexaniki səhvin olduğunu, həmin səhvin qərarın mahiyyətinə təsir etmədiyini və hər hansı dəyişiklik yaranmadığını, eləcə də məzmununa heç bir xələl gətirmədiyini qeyd edib.

Sədrlik edən Zeynal Ağayevin sualına cavabında İslam Ağakərimov bunun təsadüfən və mexaniki baş verdiyini, tərcümədə olan həmin bir səhvi bilə-bilə etmədiyini deyib.

Etiraza münasibət bildirən Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramov bildirib ki, müdafiə tərəfi bu vəsatəti məhkəmədə bir neçə dəfə səsləndirib. Tərcüməçi üzrlü səbəblərdən məhkəmə iclaslarında iştirak edə bilmədiyi üçün onun qeyd edilənlərlə bağlı mövqeyini öyrənmək mümkün olmamışdı. Bugünkü iclasda isə tərcüməçi həmin səhvin mexaniki baş verdiyini və texniki məsələ olduğunu, habelə bu səhvi bilə-bilə etmədiyini bildirib.

Dövlət ittihamını müdafiə edən prokuror N.Bayramov diqqətə çatdırıb ki, tərcüməçiyə etiraz cinayət-prosessual qanunvericilikdə nəzərdə tutulan hallardan biri olduqda əsaslı sayıla və təmin edilə bilər. Tərcüməçiyə etirazın əsasları sırasında isə yol verilən mexaniki və ya texniki səhv göstərilmir. Odur ki, məhkəmədən müdafiə tərəfinin tərcü-



məçiyə etirazının təmin olunmamasını xahiş edib.

Məhkəmə tərəfləri dinlədikdən sonra qərar qəbul etmək üçün müşavirə otağına gedib.

Müşavirədən sonra qərar elan edilib. Qərara əsasən etiraz təmin olunmayıb.

Vurğulanıb ki, cinayət prosesində tərcüməçiyə etirazın əsasları cinayət prosessual qanunvericilikdə konkret müəyyən olunub və verilmiş etiraza baxan zaman İslam Ağakərimova münasibətdə həmin əsaslar müəyyən edilməyib.

Sonra zərərçəkmiş şəxslərin ifadələri dinlənilib.

Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandıran zərərçəkmiş Cəmil Əliyev bildirib ki, Ağdərə rayonunun Çərəkdar kəndində olarkən Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən atılmış tank əleyhinə idarəolunan raket mərmisinin partlaması nəticəsində özü, eləcə də Bəhram Allahyarov və Murad Verdiyev müxtəlif xəsarətlər alıblar. Həmin vaxt yanlarında olan Şikar Hüseynov isə həlak olub.

Zərərçəkmiş İntiqam Rüstəmli qeyd edib ki, Xocavənd rayonu ərazisində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin təxribatı nəticəsində özü və daha bir nəfər xəsarət alıb.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zərərçəkmiş Etibar Əliyev bildirib ki, Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində jurnalistlərlə birgə hərəkət edərkən idarə etdiyi avtomobilin düşmən tərəfindən basdırılmış minaya düşməsi nəticəsində partlayış baş verib və Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) müxbiri Məhərrəm İbrahimov, "Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin operatoru Sirac Abışov və Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısının Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev həlak olub, özü və daha üç nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıblar.

Zərərçəkmiş Allahverdi Məmmədli qeyd edib ki, Xocavənd rayonu ərazisində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin atdığı qumbaranın yaxınlığına düşüb partlaması nəticəsində yaralanıb.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandıran zərərçəkmiş Nahid Əsədov bildirib ki, Xocavənd rayonu ərazisində düşmən tərəfindən atılan mərminin partlaması nəticəsində yaralanıb.

Zərərçəkmiş Elşən Rüstəmov qeyd edib ki, Cəbrayıl rayonu ərazisində düşmənin basdırdığı minaları təmizləyərkən partlayış baş verib və nəticədə müxtəlif xəsarətlər alıb.

Zərərçəkmiş Şahmar Cəlilov bildirib ki, Ağdərə rayonu istiqamətində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin açdığı raket atəşi nəticəsində içərisində olduqları avtomobil vurulub, özü xəsarət alıb, bir nəfər isə həlak olub.

Dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıran zərərçəkmiş Ümüd Şükürov qeyd edib ki, Kəlbəcərdə düşmənin təxribatı nəticəsində bir neçə nəfər həlak olub, özü və başqa bir neçə şəxs isə müxtəlif xəsarətlər alıblar.

Zərərçəkmiş Novruz Əliyev bildirib ki, Kəlbəcər rayonunun Yellicə kəndində düşmənin dronlardan istifadə etməklə törətdiyi təxribat nəticəsində yaralanıb.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran zərərçəkmiş Eynulla Nəsirli qeyd edib ki, Xocalı rayonu istiqamətində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin açdığı atəşlər nəticəsində xəsarət alıb.

Digər zərərçəkmiş Yusif Yusifov isə bildirib ki, Ağdam rayonunun ərazisində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin açdığı snayper atəşləri nəticəsində İxtiyar Bayramov həlak olub, özü isə xəsarət alıb.

Ardınca məhkəmə prosesi sənədlərin və cinayət işi materiallarında olan digər sübutların tədqiqi ilə davam etdirilib.

Məhkəmənin növbəti iclası noyabrın 20-nə təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

# REGİONLAR

## Dilçilər Neftçalada toplaşdılar

**Neftçaladakı Heydər Əliyev Mərkəzində ənənəvi "AZLİNG 2025 - Azərbaycan dili və müasir dilçilik: problemlər, perspektivlər və çağırışlar" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.**

Neftçalalı dilçi alimlərin təşəbbüsü, Heydər Əliyev Fondunun dəstəyi, "Regional İnkişaf" İctimai Birliyi və Neftçala rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə keçirilən tədbir Prezident İlham Əliyevin "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 1 noyabr 2018-ci il tarixli fərmanının icrasına həsr edilmişdir. 100-ə yaxın alim və gənc tədqiqatçının iştirak etdiyi AZLİNG 2025 konfransında müasir dünya dilçilik elminin inkişafı fonunda Azərbaycan dilinin aktual problemləri müzakirə olunmuşdur. Azərbaycanın tanınmış dilçi alimləri ilə bərabər, gənc tədqiqatçıların da iştirak etdikləri konfransdan öncə Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilmişdir. Sonra konfrans çərçivəsində təşkil edilən Azərbaycan Dilçilik Nailiyyətləri Sərgisiylə tanışlıq olmuşdur. Onu da bildirək ki, Azərbaycan dilçiliyinin son nailiyyətlərini əks etdirən kitabların nümayiş olunduğu sərgi bir neçə gün davam edəcək. Tədbiri giriş sözü ilə açan Neftçala rayon Heydər Əliyev Mərkəzinin direktoru Könül Məmmədova Prezident İlham Əliyevin AMEA-nın 80 illik yubileyi zamanı Azərbaycan dilinin saflığının qorunmasının vacibliyini sitat gətirərək dil və xalqın taleyinin onun mənliyi və mənəviyyatıyla sıx bağlı olduğunu bildirmişdir.

Kofransın açılış hissəsində fəxri qonaq qismində iştirak edən Neftçala Rayon İcra Hakimyyətinin başçısı Mirhəsən Seyidov, "Regional İnkişaf" İctimai Birliyinin şöbə müdiri Gülbağda Leysanova, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev,



AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, Əməkdar elm xadimi Qəzənfər Paşayev, Xəzər Universitetinin rektoru Raziyə İsayeva, Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin rəisi Araz Əlizadə çıxış edərək konfransın əhəmiyyətindən danışmışlar ki, qloballaşan dünyamızda doğma dilimizin qorunub saxlanması qarşımızda dayanan ən vacib vəzifələrdən biridir. Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi Azərbaycan dili siyasətini bu gün Prezident İlham Əliyev uğurla davam etdirir.

Sonra AMEA Nəsimi adına Dilçilik İnstitutunun dosenti, filologiya elmləri doktoru Qüdsiyyə Qəmbərova "AZLİNG 2024 - Azərbaycan dili və müasir dilçilik: problemlər, perspektivlər və çağırışlar" adlı elmi konfransın materialları əsasında nəşr edilmiş linqvistik toplunun təqdimatını edərək kitabı Azərbaycan dilçiliyinə dəyərli töhfə kimi dəyərləndirmişdir.

Tədbir Heydər Əliyev Fondunun Çin üzrə nümayəndəsi, Pekin Xarici Dillər Universiteti Azərbaycan dili kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyevin moderatorluğu ilə davam etmişdir. Aqşin Əliyev AZLİNG konfranslarının beşillik hesabatını təqdim etdikdən sonra konfransın "Gənc dilçilər" forumu başlamışdır. "Gənc dilçilər" forumunda AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Elnarə Əliyeva, Bakı Dövlət Universitetinin baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru Ramil Bayramov, Bakı Dövlət Universitetinin doktorantı Simnar Əlizadə çıxış edərək Ümummilli Lider Heydər Əliyevin dil siyasətinin müasir Azərbaycan dilinə təsiri, Azərbaycan dilçiliyinin son nailiyyətləri, dilimizin saflığının qorunması yönündə həyata keçirilən islahatlar haqqında fikirlərini bölüşmüşlər. Müzakirələrdən sonra konfrans bölmə iclasları ilə işini davam etdirmişdir. Azərbaycanın müxtəlif ali təhsil və elm ocaqlarını, eləcə də dünyanın müxtəlif universitetlərini təmsil edən 100-ə yaxın alim və gənc tədqiqatçı aktual dilçilik mövzuları ilə bağlı ən son tədqiqatlarından danışmışlar.

Sonda iştirakçılara sertifikatlar təqdim edilmişdir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Goranboyun tütün sahələrindən bol məhsul gözlənilir

**Son illər Goranboyda aqrar sahənin, o cümlədən tütünçülüyün inkişafında əsaslı nəticələr əldə edilmiş, istehsalı artırmaq və emal müəssisələri yaratmaq üçün əlverişli şərait yaradılmışdır.**

Əvvəlki illərdə olduğu kimi, bu il də tütünçülər bol məhsul yetişdirmişlər. Hazırda məhsul yığımı gedir. Son məlumata görə, sahələrdən 1186 ton yaş məhsul toplanılmışdır. Bundan əlavə, qısa vaxt ərzində Aşağı Ağcakənd qəsəbəsi ərazisində əkilmiş 3 hektara yaxın sahədə 14 istixana qurulmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Astarada ekofestival keçirilib

**Astara Rayon İcra Hakimiyyətinin dəstəyi, Azərbaycan Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə Lənkəran Regional Turizm İdarəsi tərəfindən park-bulvar ərazisində ekofestival keçirilmişdir.**

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Qəzənfər Ağayev, Azərbaycan Dövlət Turizm Agentliyinin sektor müdiri Rüstəm Mehtizadə, Lənkəran Regional Turizm İdarəsinin rəisi İlqar Əzimov, rayonun idarə, müəssisə və təşkilatlarının rəhbərləri, turizm sahəsi üzrə bölgədə fəaliyyət göstərən dövlət, özəl müəssisələrin və ictimaiyyət nümayəndələri iştirak etmişlər.

Festival çərçivəsində rayonun və regionun ekoturizm imkanlarının nümayişi ilə yanaşı, sənətkarlıq sərgisi, master-klaslar, müxtəlif yarışlar və əyləncələr, musiqi və rəqs kollektivlərinin iştirakı ilə konsert proqramı təşkil olunmuşdur.

***"Azərbaycan"***

## AXA dabaq xəstəliyinin SAT-1 serotipinə qarşı tədbirlərə başlayıb

**BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) və Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST/WOAH) birgə məlumatına əsasən, dabaq (Foot-and-Mouth Disease-FMD) xəstəliyinin əsasən Cənubi Afrika üçün xarakterik olan SAT-1 (Southern African Territories) serotipi son aylarda Yaxın Şərq və Qərbi Avrasiya regionlarında aşkar edilib.**



Türkiyə, Gürcüstan, İraq və Azərbaycanın da daxil olduğu üçüncü epidemioloji hövzə ərazisində Türkiyə və İraqda xəstəliyin SAT-1 serotipinin yayılması rəsmi təsdiqini tapıb.

Bu səbəbdən FAO və ÜHST tərəfindən müvafiq ölkələrə biotəhlükəsizlik, monitorinq və peyvəndləmə tədbirlərinin gücləndirilməsi, həmçinin xəstəliyə qarşı erkən xəbərdarlıq və cavab mexanizmlərinin təkmilləşdirilməsi tövsiyə edilib.

Bölgədə dabaq xəstəliyinin SAT-1 serotipi ilə bağlı yoluxma risklərini nəzərə alaraq Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi (AXA) tərəfindən builki peyvəndləmə planından kənar dabaq xəstəliyinin həmin serotipinə qarşı əlavə peyvənd alınıb və aidiyyəti qurumlar ilə razılaşdırılmaqla profilaktik peyvəndləmə tədbirlərinə başlanılıb.

Bildiririk ki, peyvənd tədarükü və peyvəndləmə tədbirlərinin bu ilin sonuna qədər başa çatdırılması planlaşdırılır. Artıq peyvənd vasitəsinin müəyyən hissəsi ölkəmizə gətirilib və sərhədboyu ərazilərdə dabaq xəstəliyinin SAT-1 serotipi üzrə peyvəndləmə işlərinə başlanılıb. Həyata keçiriləcək profilaktik tədbirlər dabaq xəstəliyinin SAT-1 serotipinin ölkə ərazisində yayılmasının və heyvandarlıq sahəsində itkilərin qarşısını almağa xidmət edir.

AXA FAO və ÜHST tövsiyələri nəzərə alınmaqla epizootik sabitliyin qorunması, biotəhlükəsizlik tədbirlərinin gücləndirilməsi və peyvəndləmə tədbirlərinin operativ həyata keçirilməsi istiqamətində fəaliyyətini davam etdirir.

## Quşçuluq sektorunun inkişaf perspektivləri müzakirə edilib

**Azərbaycanın kənd təsərrüfatı sektorunun inkişafına töhfə vermək üçün yaradılan və ölkənin aqrar sektorunun ən iri şirkətlərini birləşdirən "Aqrar Məşvərət Şurası" İctimai Birliyinin növbəti iclası keçirilib. Tədbirdə Kənd Təsərrüfatı və İqtisadiyyat nazirliklərinin, Dövlət Gömrük Komitəsinin rəhbər şəxsləri, "Aqrar Məşvərət Şurası" İB-nın üzvləri, eləcə də müxtəlif şirkət və assosiasiyaların nümayəndələri iştirak ediblər.**

Məqsəd ölkədə quşçuluq sektorunun mövcud vəziyyətini təhlil və bu sahədəki çağırışları və inkişaf istiqamətlərini müzakirə etmək, dövlət dəstək mexanizmlərinin təkmilləşdirilməsi və sahibkarlar üçün yeni imkanların müəyyənləşdirilməsi olan tədbiri giriş sözü ilə kənd təsərrüfatı naziri Məcnun Məmmədov açıb. O, ölkədə heyvandarlıq sektorunun strateji əhəmiyyətini vurğulayaraq qeyd edib ki, bu sahənin inkişafı ərzaq təhlükəsizliyinin təmin olunması, yerli istehsalın artırılması və idxaldan asılılığın azaldılmasında mühüm rol oynayır. Nazir bildirib ki, dövlət tərəfindən həyata keçirilən proqramlar, subsidiya mexanizmləri, investisiya layihələri və fermerlərə göstərilən dəstək quşçuluq sektorunun davamlı inkişafına yönəlib.

"Aqrar Məşvərət Şurası"nın sədri Niyazi Əmirbəyov çıxışında dövlət-özəl tərəfdaşlığının gücləndirilməsinin, innovativ yanaşmaların tətbiqinin və beynəlxalq təcrübədən faydalanmanın sektorun inkişafında əsas istiqamətlərdən biri olduğunu diqqətə çatdırıb.

Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov isə öz növbəsində quşçuluq məhsullarının idxal-ixrac əməliyyatlarında şəffaflığın artırılması, yerli istehsalçılar üçün gömrük prosedurlarının sadələşdirilməsi və ixrac potensialının genişləndirilməsi istiqamətində görülən tədbirlərdən danışıb.

İqtisadiyyat nazirinin müavini Səməd Bəşirli aqrar sahədə sahibkarlığın inkişafı, investisiya təşviqi mexanizmləri və quşçuluq sənayesində əlavə dəyər zəncirinin gücləndirilməsi istiqamətində atılan addımlar barədə məlumat verib.

Tədbir çərçivəsində Kənd Təsərrüfatı nazirinin müşaviri Zaur Əliyev "Quşçuluq sektorunun inkişafı üzrə dövlət siyasəti: hədəflər və imkanlar" mövzusunda təqdimatla çıxış edib. Təqdimatda quşçuluq sahəsinə göstəriləcək dövlət dəstəyi, planlaşdırılan proqramlar və inkişaf hədəfləri barədə məlumat verilib.



Daha sonra Azərbaycan Quş əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyası idarə heyətinin sədri Mürvət Həsənli və "Siyəzən" Broyler ASC-nin direktoru Cavid Abbasov "Quşçuluq sektorunun inkişafına dair təkliflər" mövzusunda təqdimatla çıxış ediblər. Onlar quşçuluq sahəsində özəl sektorda mövcud vəziyyət, çətinliklərin həlli yolları və dövlətlə əməkdaşlığın gücləndirilməsi istiqamətində təkliflərini səsləndiriblər.

Tədbirdə quşçuluq sektorunun mövcud çağırışları, beynəlxalq təcrübənin tətbiqi imkanları, dövlət dəstək mexanizmlərinin təkmilləşdirilməsi və gələcək əməkdaşlıq istiqamətləri ətrafında geniş fikir mübadiləsi aparılıb, səsləndirilən təkliflər qeydiyyata alınıb.

***"Azərbaycan"***

## Qəsəbə bələdiyyələrinin büdcə daxilolmaları əvvəlki illərlə müqayisədə 44 faizədək artıb

**Quba rayon Heydər Əliyev Mərkəzində Azərbaycan Qəsəbə Bələdiyyələrinin Milli Assosiasiyasının ümumi yığıncağı keçirilib. AZƏRTAC xəbər verir ki, respublikanın bütün qəsəbə bələdiyyələrini təmsil edən 98 nümayəndənin iştirak etdiyi ümumi yığıncaqda Azərbaycan Qəsəbə Bələdiyyələrinin Milli Assosiasiyasının 2023-2024-cü illərdə fəaliyyəti haqqında hesabatı, Nəzarət-təftiş komissiyasının hesabatı, eləcə də təşkilati və digər məsələlər müzakirə olunub.**

Yığıncaqda bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət bütün sahələr üzrə ölkəmizin davamlı inkişafını təmin etdiyi kimi, bələdiyyə orqanlarının ictimai-siyasi həyatımıza daha yaxından inteqrasiya olunmasına zəmin yaradıb, vətəndaşların yerli özünüidarəetmədə fəallığını artırıb. Hesabat ilində bələdiyyələrin daha səmərəli fəaliyyəti ilə bağlı sistemli tədbirlər həyata keçirilib, bu sahədə qabaqcıl təcrübənin yayılması istiqamətində qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri davam etdirilib, yerli özünüidarəetmənin qanunvericilik bazası təkmilləşdirilib.

Bələdiyyələrin iqtisadi potensialının artırılması sahəsində fəaliyyətin əlaqələndirilməsi davam etdirilib, "Bələdiyyələrin Avtomatlaşdırılmış Məlumat Sistemi"nin fəaliyyəti əsaslı şəkildə təkmilləşdirilib, həyata keçirilən inteqrasiya və vergi-uçot sistemində aparılan optimallaşdırılma işləri nəticəsində qəsəbə bələdiyyələrinin büdcə daxilolmaları əvvəlki illərlə müqayisədə 44 faizədək artıb.

Bələdiyyələr aztəminatlı ailələrin, qocaların, əlillərin və valideyn himayəsindən mərhum uşaqların, eləcə də müharibə iştirakçılarının və şəhid ailələrinin sosial vəziyyətinin yaxşılaşdırılması, vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində bir sıra layihələr həyata keçirmiş, yerli əhəmiyyətli problemlərin həlli istiqamətində əməli addımlar atmışdır.






Hesabat dövründə yerli özünüidarəetmənin təkmilləşdirilməsi, dayanıqlı və yüksək maliyyə imkanlarına malik yeni bələdiyyələrin yaradılması, yerli əhəmiyyətli məsələlərin həlli sahəsində onların fəaliyyətinin genişləndirilməsi məqsədilə qəbul edilmiş qanunvericilik aktlarına əsasən bələdiyyələrin birləşdirilməsi həyata keçirilib. Birləşmə nəticəsində ölkədə fəaliyyət göstərən qəsəbə bələdiyyələrinin sayı 149-dan 98-ə endirilib. Cari ilin yanvarında keçirilən seçkilər nəticəsində ölkə üzrə 685 bələdiyyə yenidən formalaşıb.

Tədbirdə qeyd edilib ki, ötən dövrdə Milli Assosiasiya beynəlxalq qurumlar və qeyri-hökumət təşkilatları, xarici ölkələrin bələdiyyələri və assosiasiyaları ilə əməkdaşlıq əlaqələrini davam etdirib. Ümumi yığıncağın sonunda müvafiq qərarlar qəbul edilib, qəsəbə bələdiyyələrinin fəaliyyətinin müasir çağırışlar və ölkəmizin yeni strateji inkişaf mərhələsinin tələbələri ilə uzlaşdırılması məqsədilə onların maliyyə, kadr və texniki bazasının daha da yaxşılaşdırılması əsas istiqamətlər kimi müəyyənləşdirilib.

Prezidentin 2025-ci il 11 iyul tarixli 440 nömrəli fərmanı ilə Bələdiyyələrin Avtomatlaşdırılmış Məlumat Sisteminin bələdiyyələrin vahid informasiya sistemi qismində və dövlət informasiya sistemi statusunda fəaliyyətinin təşkili, milli assosiasiyalara verilən tövsiyələr, Sistemin Əsasnaməsinin ölkə ərazisində fəaliyyət göstərən bələdiyyələr tərəfindən birgə təsdiqlənməsi, sistemə ötürüləcək və sistemdən əldə ediləcək məlumatların dairəsinin Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilməsi dövlətimizin milli assosiasiyalara göstərdiyi yüksək etimadın və diqqətin göstəricisi kimi qiymətləndirilib. Bildirilib ki, bələdiyyələrin vahid informasiya sistemi onların fəaliyyətində şəffaflığın, hesabatlılığın təmin edilməsində və korrupsiya hallarının aradan qaldırılmasında müstəsna rol oynayacaq.

Ümumi yığıncağın işində Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin və Ədliyyə Nazirliyinin nümayəndələri, Azərbaycan Şəhər və Kənd Bələdiyyələrinin Milli Assosiasiyalarının rəhbərləri iştirak ediblər.

# Professorun 90 illik ömür yolu elmi yaradıcılıqla zəngindir

Zaman-zaman qarşımıza elə şəxsiyyətlər çıxır ki, onların ömür yollarına nəzər salanda görürük ki, həyatları təkcə yaşadıqları illərlə deyil, yaratdıqları mənəvi irs, formalaşdırdıqları elmi məktəb və yetişdirdikləri nəsillərlə ölçülür.



90 illik yubileyini qeyd etdiyimiz professor Şövqi Göyçaylı da məhz belə fədakar, ömrünü elmin inkişafına həsr etmiş ziyalılardandır. Onun elmi pedaqoji fəaliyyəti, Azərbaycan coğrafiya elminin formalaşmasına verdiyi töhfələr yalnız bir alim ömrünün səhifələri deyil, bütöv bir dövrün elmi epoxasıdır.



Noyabrın 18-də Bakı Dövlət Universitetində Coğrafi ekologiya kafedrasının 45 illiyi və professor Şövqi Göyçaylının anadan olmasının 90 illik yubileyi münasibətilə "Coğrafi ekologiya: nəzəriyyə, metodologiya və praktika" mövzusunda elmi konfrans keçirilib. Elm məbədində keçirilən elmi konfrans həm professor Şövqi Göyçaylının zəngin irsinə dərin ehtiramın olduğunu, həm də qocaman professorun yaratdığı elmi irsin bu gün də davam etdiyini təsdiqlədi. Bu yubiley həm bir ömrün müdriklik zirvəsinə, həm də bir elmi məktəbin inkişaf salnaməsinə verilən qiymət idi.

1935-ci ildə Şəkidə dünyaya gələn, Göyçayda böyüyüb boya-başa çatan, elmi zirvələrə Bakı Dövlət Universitetində ucalan professor Şövqi Göyçaylı Azərbaycanın coğrafi düşüncə məktəbinin ən parlaq simalarından biridir. Ötən əsrin 60-cı illərindən başlayaraq əhali coğrafiyası, məskunlaşma problemləri, təbiət-cəmiyyət münasibətləri, ekologiyanın elmi əsasları davamlı olaraq onun elmi araşdırmalarının mərkəzində olmuşdur. Müəllif və həmmüəllifi olduğu irimiqyaslı xəritələr, ölkənin iqtisadi-coğrafi inkişafını əks etdirən tədqiqatlar, coğrafi ekologiya üzrə hazırladığı elmi-metodik baza Azərbaycanın elm tarixində mühüm mərhələ təşkil edir.

Onilliklər boyu BDU-da kafedraya rəhbərlik edən professor Şovqi Göyçaylı coğrafi ekologiya kimi müstəqil elmi istiqamətin təməlini qoyanlardan biri, yeni nəslin yetişməsində böyük məktəb yaradan alimlərimizdəndir.

Konfransda çıxış edən Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev professor Şövqi Göyçaylının formalaşdırdığı tədris konsepsiyası, ekologiya və ətraf mühitin mühafizəsi sahəsində kadr hazırlığına verdiyi töhfələrdən, ölkəmizdə bu sahənin elmi əsaslarla inkişafına möhkəm zəmin yaratdığından bəhs etdi.

Xatırladaq ki, 1981-ci ildən BDU-da "Ətraf mühiti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə" kafedrasına rəhbərlik edən alim bu gün həmin kafedranın professorudur (2015-ci ildən bu kafedra Coğrafi ekologiya kafedrası adlanır). Şövqi müəllimin elmi yaradıcılığının əsasını əhali, eləcə də onun məskunlaşmasının nəzəri və tətbiqi problemləri, təbiətlə cəmiyyət arasındakı qarşılıqlı əlaqələrin coğrafi məsələləri, coğrafi ekologiyanın inkişafı və tədrisinin təkmilləşdirilməsi təşkil edir.

Tədbirdə çıxış edən akademik Vasif Babazadə qeyd etdi ki, Azərbaycan elminin inkişafında, təbiətin mühafizəsi və əhali coğrafiyasının elmi əsaslarla tədqiqində Şövqi Göyçaylının rolu əvəzsizdir. O, yalnız öz dövrünü deyil, gələcəyin elmi istiqamətlərini də düşünərək çalışan bir alim, bilik və zəhmətlə ucalmış bir ziyalı, fədakar müəllim, müdrik insan kimi yaddaşlarda qalır.

Professor Məhluqə Yusifova alim haqqında danışarkən dedi ki, o, 200-dən çox əsərin, o cümlədən monoqrafiyaların, dərslik və dərs vəsaitlərinin, eləcə də Azərbaycanın irimiqyaslı iqtisadi və əhali xəritələrinin həmmüəllifi və müəllifidir.

Bakı Dövlət Universiteti Ekologiya və torpaqşünaslıq fakültəsinin dekanı Akif Ağbabalı çıxışında professor Şövqi Göyçaylının keçdiyi ömür yoluna diqqət çəkdi. Professor Ş.Göyçaylının 90 illik yubileyinin və rəhbərlik etdiyi kafedranın 45 illik fəaliyyətinin eyni tədbirdə qeyd olunması təsadüfi deyil. Bu yubiley bir alimin şərəfli ömür yolunun, həm də Azərbaycan elminin inkişaf tarixində mühüm iz qoymuş bir kafedranın elmi irsinin bayramıdır.

Uzun ömrün sirrini ailə, kollektiv və dövlətin dəstəyində görən professor həm ailəsinin dayağı, həm kollektivinin müəllimi və rəhbəri, həm də dövlətin etimad bəslədiyi elm fədaisidir. Bu gün ölkə rəhbərliyi tərəfindən layiq görüldüyü "Əməkdar müəllim" fəxri adı və "Şöhrət" ordeni onun çoxsahəli fəaliyyətinə verilmiş ən yüksək qiymətdir.

Konfransda çıxış edən BDU-nun Coğrafiya fakültəsinin dekanı Məqsəd Osmanov, ETN-nin Coğrafiya İnstitutunun baş direktoru Zaur İmrani, professorlar Çingiz İsmayılov, Aydın İbrahimov, Bəhram Əliyev və Sevinc Hüseynova yubilyarın həyat və fəaliyyətindən söz açaraq qocaman elm xadiminə uğurlar arzuladılar.

***Elşən QƏNİYEV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

## Azərbaycan güləşçiləri Rusiyada 5 medal qazanıblar



Azərbaycan güləşçiləri Rusiyanın müxtəlif şəhərlərində təşkil edilən yarışlarda iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Yakutskda keçirilən sərbəst güləş üzrə turnirdə Ali Tsokayev (86 kiloqram) bütün rəqiblərinə qalib gələrək çempion olub. Cəbrayıl Hacıyev (79 kiloqram) isə üçüncü yeri tutub.

Tarko-Sale şəhərində isə yunan-Roma güləşi üzrə yarış baş tutub. Turnirdə Fərid Sadıxlı (55 kiloqram), Nihad Quluzadə (60 kiloqram) və Məhəmməd Əhmədiyev (97 kiloqram) bürünc medal qazanıb.

## Azərbaycanın U-19 millisi seçmə mərhələyə qələbə ilə yekun vurub

Azərbaycanın 19 yaşadək futbolçulardan ibarət millisi Avropa çempionatının seçmə mərhələsində son oyununa çıxıb.



AZƏRTAC xəbər verir ki, 13-cü qrupda yer alan yığma Maltanın müvafiq yaş qrupundan ibarət komandası ilə qarşılaşıb. Ta Qali şəhərində yerləşən "Sentenari" stadionunda keçirilən görüş Azərbaycan seçməsinin 2:1 hesablı qələbəsi ilə yekunlaşıb. Bununla da millimiz öz qrupunda 3 xalla 3-cü pilləni tutub. Malta isə 1 xalla sonuncu - 4-cü olub.

## Hava proqnozu açıqlanıb

Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, noyabrın 19-da Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-qərb küləyi əsəcək.



Havanın temperaturu gecə 10-14, gündüz 17-22 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 768 mm civə sütunu, nisbi rütubət gecə 80-85 faiz, gündüz 70-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 7-11, gündüz 17-21, dağlarda gecə 0-4, gündüz 7-12 dərəcə isti olacaq.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


**BEYNƏLXALQ HƏYAT**

## Banqladeşin devrilmiş baş naziri ölüm hökmünü "ədalətsiz" adlandırıb

### Şeyx Hasina Vazed hökmün qanunsuz hökumətin "saxta məhkəməsi" tərəfindən çıxarıldığını bildirib

Banqladeşin keçmiş baş naziri Şeyx Hasina Vazed 2024-cü ilin iyul ayında keçirilən etirazlar zamanı baş verən "ölümlərə görə şəxsən məsuliyyət daşıdığı üçün" Banqladeş üzrə Beynəlxalq Cinayətlər Tribunalının qiyabi ölüm hökmünü "ədalətsiz" və "siyasi maraqlara əsaslanan" adlandırıb.



"Avami Liqası" partiyasının sosial media səhifəsində məhkəmənin qərarını "ədalətsiz" adlandıran siyasətçi iddia edir ki, bu qərar siyasi maraqlara xidmət etmək üçün qəbul edilib və demokratik legitimliyi olmayan və xalq tərəfindən seçilməyən hökumət tərəfindən yaradılan və idarə olunan "saxta məhkəmə" tərəfindən verilib. Hasina bildirib ki, məhkəmələr "Avami Liqası"nı günahlandırmaq məqsədi daşıyır. Banqladeş məhkəməsi əvvəllər Hasinanı "insanlığa qarşı cinayətlərdə" günahkar bilmiş və 2024-cü ilin iyul ayında dövlət işlərinə kvotalara qarşı keçirilən etirazlar zamanı baş verən ölümlərə görə ən ağır cəzaya məhkum etmişdir.

Xatırladaq ki, iyulun ortalarında Banqladeşdə 1971-ci il Müstəqillik Müharibəsi veteranlarının övladları üçün dövlət qulluğunda kvotaların ayrılması qərarına qarşı tələbələrin rəhbərlik etdiyi etirazlar başlamışdır. İyulun sonlarında Ali Məhkəmə kvotanı azaltdıqdan sonra iğtişaşlar sakitləşmişdir. Lakin etirazlar zamanı zorakılıqda ittiham olunan Camaat-e-İslami partiyası və onun tələbə qanadının qadağan edilməsindən sonra etirazçılar yenidən küçələrə çıxaraq həlak olanlar üçün ədalət tələb etmişlər. Banqladeşdəki toqquşmalar yüzlərlə insanın ölümünə və minlərlə insanın həbsinə səbəb olmuşdur. Davam edən zorakılıqlar fonunda baş nazir Şeyx Hasina rəsmi iqamətgahını tərk edərək hərbi vertolyotla Hindistana uçmuşdur. Bundan sonra etirazçılar onun rəsmi iqamətgahına basqın etmişlər.

2024-cü il avqustun 8-dən Nobel Sülh Mükafatı laureatı Məhəmməd Yunus Banqladeşin müvəqqəti hökumətinə rəhbərlik edir.

## *Tehran:* "Nüvə obyektlərinə dəyən ziyana görə uranın zənginləşdirilməsi dayandırılıb"

"İsrail və ABŞ-nin iyun ayında İranın nüvə obyektlərinə hücumları nəticəsində dəyən ziyan səbəbindən ölkədə uranın zənginləşdirilməsi texniki cəhətdən mümkün deyil". İran hökumətinin sözçüsü Fatimə Mühacirani bunu Tehranda keçirilən mətbuat konfransında bildirib.



O, vurulan ziyanın bu prosesin davam etdirilməsini mümkünsüz etdiyini vurğulayıb. "Nüvə obyektlərimizin faktiki vəziyyəti nəzərə alınmaqla belə bir tələbin hazırda heç bir praktik mənası yoxdur", - deyə Mühacirani BMT Təhlükəsizlik Şurasında Böyük Britaniya, Fransa və Almaniya tərəfindən uranın zənginləşdirilməsinin dayandırılmasını tələb edən qətnamə layihəsinin hazırlanması ilə bağlı suala cavab olaraq bildirib.

Prezident Məsud Pezeşkianın paytaxtın su ehtiyatlarının tükənməsi riski ilə bağlı son açıqlamasını şərh edən Mühacirani dövlət başçısının Tehranın mümkün təxliyəsi ilə bağlı açıqlamalarının su böhranı barədə ictimaiyyətin məlumatlılığını artırmaq məqsədi daşıyan həyəcanverici bir xəbərdarlıq olduğunu aydınlaşdırıb. "Tehranın təxliyəsi mümkün deyil", - deyə o vurğulayıb.

İran hökumətinin sözçüsü həmçinin bildirib ki, Prezident Pezeşkian Səudiyyə Ərəbistanının vəliəhdi şahzadə Məhəmməd bin Salmana mesaj göndərib. Mesajda Ər-Riyadın iyun döyüşləri zamanı iranlı zəvvarların Həcc ziyarətindən qayıtması zamanı göstərdiyi səmərəli əməkdaşlığa görə təşəkkür bildirilib və İranın ikitərəfli münasibətləri daha da yaxşılaşdırmağa hazır olduğu qeyd olunub.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

Əliş Əbilhəsən oğlu Qədirov ilə "RUH" mənzil-tikinti kooperativi arasında imzalanmış 27.02.2006-cı il tarixli Xətai rayonu, M.Hadi küçəsi, 2344-cü məhəllə ünvanında inşa edilən qeyri-yaşayış sahəsi haqqında Müqavilə və 03.12.2007-ci il tarixli 25/1-1 nömrəli Maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Əhliman Əmiraslanov Qasımovlar ailəsinə əzizləri

**VALİDƏ QASIMOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəhbərliyi və kollektivi komitə sədrinin müavini Dövlətxan Dövlətxanova atası

**FAMİL DÖVLƏTXANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Mirələm və Mirhaşim Calalovlar Könül Ələkbərova anası

**GÜLZAR ƏLƏKBƏROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru professor Gülçöhrə Məmmədova və universitetin professor-müəllim heyəti Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini Dövlətxan Dövlətxanova atası

**FAMİL DÖVLƏTXANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Vüsal Rəsulzadəyə atası

**AZƏR RƏSULOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan Apellyasiya Məhkəməsinin kollektivi məhkəmənin hakimi Pərviz Hacıyevə atası

**VAQİF HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4077
Sifariş 2344

Qiyməti 60 qəpik